QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 038 (5510) 27 **fevral** 2018-ci il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**

# Xocalı faciəsi Azərbaycan xalqına qarşı aparılan etnik təmizləmə və soyqırımı siyasətinin davamıdır

*Prezident İlham Əliyev Xocalı soyqırımı qurbanlarının xatirəsini anım mərasimində iştirak edib*

Səh 2




Prezident İlham Əliyev "Rossiya-24" telekanalının müxbirinə müsahibə verib



3

Xocalı soyqırımında həlak olmuş 63 uşağın xatirəsini əbədiləşdirmək üçün 63 ağac əkilib



4

İstanbulda Azərbaycan Dostluq Parkının və Xocalı soyqırımı abidəsinin açılışı olub



5

Naxçıvanda Xocalı soyqırımı qurbanlarının xatirəsi yad edilib



6

Dmitri Savelyev: "Sağalmaz yara olan Xocalı barədə bütün dünyaya daim xatırlatmağı çox vacib hesab edirəm"



7

Novruzun ilk müjdəçisi



11

10

Avropa Parlamentinin üzvləri Xocalı soyqırımı ilə bağlı bəyanat veriblər



14

Radikallar daha da aqressivləşirlər



16

Useyn Bolt "Borussiya"da oynayacaq



# Xocalı faciəsi Azərbaycan xalqına qarşı aparılan etnik təmizləmə və soyqırımı siyasətinin davamıdır

*Prezident İlham Əliyev Xocalı soyqırımı qurbanlarının xatirəsini anım mərasimində iştirak edib*

***1992-ci il fevralın 25-dən 26-na keçən gecə erməni təcavüzkarları Azərbaycanın Xocalı şəhərində bəşəriyyət tarixində ən qanlı faciələrlə bir sırada duran soyqırımı törətdilər. Bu faciədən 26 il keçir. Həmin kütləvi qırğın nəticəsində 106-sı qadın, 63-ü uşaq, 70-i qoca olmaqla 613 nəfər amansızlıqla qətlə yetirildi, 487 nəfər şikəst oldu, 1275 dinc sakin girov götürüldü, onlardan 150 nəfərin taleyi hələ də məlum deyil. Bu soyqırımı aktı nəticəsində 8 ailə tamamilə məhv edildi, 25 uşaq hər iki valideynini itirdi. Hər il dünya azərbaycanlıları və ədaləti uca tutanlar Xocalı soyqırımı qurbanlarının xatirəsini yad edirlər.***



Azərbaycan paytaxtının minlərlə sakini Xocalı soyqırımının 26-cı ildönümü ilə əlaqədar anım mərasimində iştirak etmək üçün fevralın 26-da səhər tezdən Xətai rayonunda faciə qurbanlarının xatirəsinə ucaldılmış abidənin önünə toplaşıb.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva anım mərasimində iştirak etdilər. Abidənin yanında fəxri qarovul dəstəsi düzülmüşdü. Prezident İlham Əliyev abidənin önünə əklil qoydu, soyqırımı qurbanlarının xatirəsinə ehtiramını bildirdi.

Birinci vitse-prezident Mehriban Əliyeva, Baş nazir Artur Rasizadə, Milli Məclisin sədri Oqtay Əsədov, Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev abidənin önünə gül dəstələri qoydular.

Mərasimdə dövlət və hökumət nümayəndələri, Milli Məclisin deputatları, nazirlər, komitə və şirkət rəhbərləri, dini konfessiyaların başçıları, habelə qırğından xilas ola bilmiş Xocalı sakinləri iştirak edirdilər.

Anım mərasiminin iştirakçıları abidənin önünə tər güllər düzdülər.



Azərbaycanın tarixinə qanlı hərflərlə yazılmış həmin gecə erməni silahlı dəstələri hələ SSRİ dövründə Xankəndi şəhərində yerləşən, şəxsi heyətinin xeyli hissəsi ermənilərdən ibarət olan 366-cı motoatıcı alayın zirehli texnikasının və hərbçilərinin köməyi ilə qədim Xocalı şəhərini yerlə-yeksan etdilər.

Xocalı faciəsi 200 ilə qədər bir müddətdə erməni millətçilərinin və onların havadarlarının Azərbaycan xalqına qarşı apardıqları etnik təmizləmə və soyqırımı siyasətinin davamıdır. Soyqırımı zamanı 56 nəfər xüsusi qəddarlıqla öldürülüb, 3 nəfər diri-diri yandırılıb, başlarının dərisi soyulub, bədən əzaları və başları kəsilib, gözləri çıxarılıb, hamilə qadınların qarnı süngü ilə yarılıb. Bu əməllərin qabaqcadan düşünülmüş qaydada, milli əlamətinə görə insanların tamamilə və ya qismən məhv edilməsi niyyəti ilə törədilməsi beynəlxalq hüquqa əsasən Xocalı faciəsinin məhz soyqırımı olduğunu təsdiq edir.



İnsanlığa qarşı törədilmiş bu cinayət aktı beynəlxalq aləm tərəfindən öz hüquqi qiymətini almalıdır. Azərbaycan dövləti erməni millətçilərinin xalqımıza qarşı törətdiyi cinayətlər, o cümlədən Xocalı faciəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, onun soyqırımı kimi tanıdılması üçün məqsədyönlü və ardıcıl iş aparır. Prezident İlham Əliyev Xocalı faciəsini təcavüzkar erməni millətçilərinin yüzilliklər boyu Azərbaycan xalqına qarşı apardığı soyqırımı və etnik təmizləmə siyasətinin qanlı səhifəsi kimi qiymətləndirib.

Erməni təcavüzkarlarının törətdikləri bu vəhşilik yaddaşlardan heç zaman silinməyəcək. Bu, təkcə Azərbaycan xalqına qarşı soyqırımı deyildi, bəşəriyyətə, insanlığa qarşı törədilmiş qanlı cinayət idi. Buna baxmayaraq, o zamankı Azərbaycan hakimiyyəti bu dəhşətli hadisəyə siyasi qiymət verilməsi, qanlı qırğın barədə obyektiv məlumatların dünya ictimaiyyətinə çatdırılması üçün heç bir əsaslı iş görmədi. Yalnız ümummilli lider Heydər Əliyev xalqın təkidli tələbi ilə yenidən hakimiyyətə gəldikdən sonra həmin qanlı faciəyə hüquqi-siyasi qiymət verildi. 1994-cü ildə ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycan parlamenti 26 fevralı Xocalı soyqırımı günü kimi elan etdi.

Hər il bu müdhiş faciənin ildönümü respublikamızda və dünyanın müxtəlif ölkələrində ürəkağrısı ilə qeyd olunur. Faciə ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılmasında Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva böyük xidmətlər göstərib. Fondun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə "Xocalıya ədalət!" beynəlxalq kampaniyası çərçivəsində də hər il silsilə tədbirlər reallaşdırılır. Həyata keçirilən ardıcıl və kompleks tədbirlərin məntiqi nəticəsi olaraq yalan və saxtakarlıq üzərində qurulmuş erməni təbliğat maşınının iç üzü ifşa olunur. Artıq Xocalı faciəsinin soyqırımı olması faktı dünyanın bir çox ölkələrinin və beynəlxalq təşkilatların qərarlarında, qətnamələrində əksini tapır. Kanada, Meksika, Kolumbiya, Peru, Pakistan, Bosniya və Herseqovina, Rumıniya, Çexiya, İordaniya, Honduras və digər ölkələrin parlamentləri, eləcə də ABŞ-ın bir sıra ştatlarının qanunverici orqanları və İslam Əməkdaşlıq Təşkilatı Xocalı soyqırımını tanıyıb. Beynəlxalq hüquqa görə, soyqırımı sülh və bəşəriyyət əleyhinə yönələn əməldir və ən ağır beynəlxalq cinayət sayılır. BMT Baş Məclisinin 1948-ci il 9 dekabr tarixli 260 saylı qətnaməsi ilə qəbul edilən və 1961-ci ildən qüvvəyə minən Konvensiyada soyqırımı cinayətinin hüquqi əsası təsvir edilib. Ermənistanın Azərbaycana qarşı təcavüzü zamanı həmin Konvensiyada təsbit edilən soyqırımı cinayətinə aid bütün əməllər tətbiq olunub.

Xalqımız qəti əmindir ki, ədalət mütləq yerini tutacaq, Xocalı faciəsi soyqırımı kimi tanınacaq, eləcə də hazırda Cənubi Qafqazın iqtisadi güc mərkəzinə çevrilən, beynəlxalq aləmdə mövqeyini daha da möhkəmləndirən, hərbi qüdrəti ilə seçilən Azərbaycan düşmən tapdağı altında olan torpaqlarını azad edəcək, şəhidlərimizin qanı yerdə qalmayacaq, günahkarlar isə layiqli cəzalarını alacaqlar.

# Prezident İlham Əliyev "Rossiya-24" telekanalının müxbirinə müsahibə verib

**Fevralın 26-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "Rossiya-24" telekanalının müxbirinə müsahibə verib. AZƏRTAC xəbər verir ki, müsahibə fevralın 26-da telekanalın Xocalı soyqırımı ilə əlaqədar efirə gedən reportajında yer alıb. Müsahibəni təqdim edirik.**




*Müxbir: İlham Heydər oğlu, ağır səhərdir. Hansı düşüncələrlə buraya gəlmisiniz, hansı fikirlərlə yuxudan oyanmısınız? Deməliyəm ki, Rusiyada rusiyalılar bu faciəni xatırlayırlar və bu günü ehtiramla yad edirlər. Hansı düşüncələrlə bu gün buraya gəlmisiniz?*

**Prezident İlham Əliyev:** İlk növbədə, belə bir gündə bizimlə birlikdə olmaq və Azərbaycan xalqının faciəsinə münasibət bildirmək üçün Bakıya gəldiyinizə görə sizin telekanala təşəkkür etmək istəyirəm. Mən bunu çox yüksək qiymətləndirirəm və buna görə sizə minnətdaram. Bu gün Azərbaycan xalqının tarixində ən qanlı səhifələrdən biridir, azərbaycanlıların soyqırımı günüdür. Bu günü Azərbaycan xalqı həmişə yadda saxlayacaq və heç vaxt unutmayacaq. Ermənistan 26 il əvvəl azərbaycanlılara qarşı soyqırımı törədib. Bunun nəticəsində 613 dinc sakin öldürülüb, onlardan 106-sı qadın, 63-ü uşaqdır. 1200-dən çox dinc sakin əsir düşüb və işgəncələrə məruz qalıb, 500-ə qədər insan əlil olub, 150 dinc sakin barədə isə heç bir məlumat yoxdur. Onlar itkin düşmüş sayılırlar, amma onların öldürüldüyü ehtimalı daha çoxdur. Həmin müdhiş gün, həmin qanlı faciə barədə çox sayda video, foto materiallar, möcüzə nəticəsində sağ qalmış insanların şahidliyi var. Bu, erməni faşizminin təzahürü idi. Bu, vəhşiliyin təzahürü idi.

Bu gün bütün dünyada "Xocalıya ədalət!" kampaniyası genişlənir. Bu günlər dünyanın bir çox ölkələrində matəm tədbirləri keçirilir. Bu günlər Azərbaycanın diaspor təşkilatları, ictimaiyyət "dəyirmi masa"lar, təqdimatlar, sərgilər keçirir. Bütün foto və video sənədlər bu böyük faciə haqqında şahidlik edir. Biz bunu xatırlayırıq. Bunu heç vaxt unutmayacağıq. Bu faciənin heç vaxt təkrarlanmaması üçün Azərbaycan daha güclü olmalıdır. Siz mənim bu matəm gününü hansı hisslərlə qarşıladığımı soruşdunuz - hər bir azərbaycanlının keçirdiyi hisslərlə, günahsız öldürülənlərə görə dərd, kədər, qurbanlara görə ağrı hissi, eyni zamanda, ölkəmizi möhkəmləndirmək qətiyyəti ilə. Azərbaycan xalqının gələcəkdə heç vaxt belə faciə ilə üzləşməməsi üçün ölkəmizin iqtisadi, hərbi potensialını möhkəmləndirməliyik.

*Müxbir: İlham Heydər oğlu, bu müsahibəyə, bizimlə vaxt tapıb görüşdüyünüzə görə təşəkkür edirik.*

**Prezident İlham Əliyev:** Sağ olun.

*Müxbir: Bu, dövlət üçün kədərlidir.*

**Prezident İlham Əliyev:** Bu gün bizimlə burada olduğunuza görə bir daha sizə təşəkkür etmək istəyirəm. Çox sağ olun.

**Müxbir:** İştirak etməkdən məmnun olduq.



# Azərbaycan Prezidenti türkiyəli həmkarına telefonla zəng edib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 26-da Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğana telefonla zəng edib. Dövlətimizin başçısı Prezident Rəcəb Tayyib Ərdoğana ad günü münasibətilə təbriklərini çatdırıb, qardaş Türkiyə xalqının firavanlığı naminə Prezidentlik fəaliyyətində ona uğurlar və möhkəm cansağlığı arzulayıb.**

Türkiyə Prezidenti göstərilən diqqətə və təbrikə görə Prezident İlham Əliyevə minnətdarlığını bildirib. Prezident Rəcəb Tayyib Ərdoğan Xocalı soyqırımı nəticəsində günahsız insanların ermənilər tərəfindən qətlə yetirilməsini bir daha pisləyib, bu faciə ilə bağlı Azərbaycan Prezidentinə və xalqımıza baş sağlığı verib.

Dövlətimizin başçısı başsağlığına görə minnətdarlığını bildirib. Prezident İlham Əliyev və Prezident Rəcəb Tayyib Ərdoğan ölkələrimiz arasında dostluq və qardaşlıq əlaqələrinin bütün sahələrdə gələcəkdə də uğurla inkişaf edəcəyinə əminliklərini bildiriblər.

# "Yəhudi icmasının nümayəndələri Azərbaycan cəmiyyətinin fəal üzvləridirlər"

## *Prezident İlham Əliyev Amerika Yəhudi Komitəsinin prezidentinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib*



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 25-də Amerika Yəhudi Komitəsinin prezidenti Con Şapironun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.**

AZƏRTAC xəbər verir ki, Amerika Yəhudi Komitəsinin prezidenti Con Şapiro Azərbaycanda yəhudi icmasının nümayəndələri üçün çox yaxşı şəraitin yaradıldığını qeyd edərək, bunun digər ölkələrə də nümunə olduğunu vurğuladı.

Amerika Yəhudi Komitəsinin nümayəndə heyəti ilə görüşlərin ənənəvi xarakter daşıdığını bildirən Prezident İlham Əliyev bu görüşlərin səmərəli olduğunu qeyd etdi. Dövlətimizin başçısı ölkəmizdə digər xalqların və icmaların nümayəndələri kimi yəhudi icmasının nümayəndələrinin də azad və firavanlıq şəraitində yaşaması üçün hər cür şəraitin təmin edildiyini bildirdi. Prezident İlham Əliyev qeyd etdi ki, yəhudi icmasının nümayəndələri Azərbaycan cəmiyyətinin fəal üzvləridirlər, öz ənənələrinə sadiqdirlər və ölkəmizin inkişafı, eləcə də Azərbaycan həqiqətlərinin dünyada yayılması işinə öz töhfələrini verirlər. Dövlətimizin başçısı bu gün Azərbaycanda multikulturalizmin və tolerantlığın hökm sürdüyünü və bu mühitin ölkəmizdə yaşayış norması olduğunu vurğuladı. Söhbət zamanı Azərbaycan-ABŞ və Azərbaycan-İsrail əlaqələrinin inkişafından razılıq ifadə olundu.

# Xocalı soyqırımında həlak olmuş 63 uşağın xatirəsini əbədiləşdirmək üçün 63 ağac əkilib















***Fevralın 26-da "Xocalıya ədalət!" beynəlxalq məlumatlandırma kampaniyası çərçivəsində IDEA İctimai Birliyi və Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin təşkilatçılığı, Ekologiya və Təbii Sərvətlər Nazirliyi və Sabunçu Rayon İcra Hakimiyyətinin dəstəyi ilə ağacəkmə aksiyası keçirilib.***

AZƏRTAC xəbər verir ki, tədbirdə Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva iştirak edib. Əvvəlcə 2 nömrəli internat məktəbinin şagirdlərindən ibarət nəfəs alətləri orkestri Azərbaycan Respublikasının dövlət himnini ifa edib. Xocalı soyqırımı zamanı həlak olan soydaşlarımızın xatirəsi bir dəqiqəlik sükutla yad olunub.

Sonra aksiya iştirakçıları müxtəlif dillərdə "Uşaqlar və müharibə" mövzusunda çıxış ediblər. Daha sonra Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva və aksiya iştirakçıları Xocalı soyqırımında şəhid olan 63 uşağın xatirəsini əbədiləşdirmək məqsədilə 63 həmişəyaşıl sərv ağacı əkiblər.

Ağaclardan soyqırımı zamanı şəhid olan uşaqların adı, soyadı və yaşı əks olunmuş lövhələr asılıb. Xocalı soyqırımı qurbanlarının xatirəsinin yad edilməsi, bu hadisələrin yaddaşlarda yaşaması, xüsusən də gənc nəsil tərəfindən unudulmamasına yönəlmiş aksiyaya Azərbaycan Uşaqlarının IV Ümumrespublika Forumunun 120-yə yaxın iştirakçısı, o cümlədən ölkəmizdə təhsil alan və yaşayan xarici ölkə vətəndaşı olan uşaqlar qoşulub.

Qeyd edək ki, "Xocalıya ədalət!" beynəlxalq maarifləndirmə kampaniyasına Leyla Əliyevanın təşəbbüsü ilə 2008-ci ildə start verilib. Kampaniya Xocalı soyqırımı, Ermənistan-Azərbaycan münaqişəsinin tarixi səbəbləri və nəticələri, həmçinin Ermənistan silahlı qüvvələrinin Azərbaycanın işğal olunmuş ərazilərindən qeyd-şərtsiz və dərhal çıxarılmasının zəruriliyi ilə bağlı beynəlxalq maarifləndirmənin artırılması məqsədini daşıyır.

# İstanbulda Azərbaycan Dostluq Parkının və Xocalı soyqırımı abidəsinin açılışı olub

***Fevralın 25-də İstanbul şəhərinin Bağcılar rayonunda böyük ərazini əhatə edən Azərbaycan Dostluq Parkının və burada ucaldılmış Xocalı soyqırımı abidəsinin açılışı olub. AZƏRTAC xəbər verir ki, açılış mərasimində Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov, Azərbaycanın İstanbuldakı baş konsulu Məsim Hacıyev, İstanbul valisi Vasip Şahin, İstanbul Böyükşəhər Bələdiyyəsinin sədri Mövlud Uysal, Bağcılar rayon bələdiyyəsinin sədri Lokman Çağrıcı, diplomatlar, deputatlar, Türkiyə ictimaiyyətinin tanınmış simaları, elm və mədəniyyət xadimləri, yerli sakinlər, QHT və KİV təmsilçiləri iştirak ediblər.***







Mərasim Azərbaycanın və Türkiyənin dövlət himnlərinin səsləndirilməsi ilə başlanıb. Sonra ölkələrimizin müstəqilliyi uğrunda canlarından keçən şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad olunub. Çıxışında "böyük Ermənistan" xülyasının ayrı-ayrı istiqamətləri barədə geniş məlumat verən Əli Həsənov qeyd edib ki, Xocalı soyqırımı zaman-zaman öz məqsədlərinə çatmaq üçün ermənilərdən xalqlarımıza qarşı istifadə edən böyük güclərin maraqlarının daha bir göstəricisi, XX əsrin ən ağır bəşəri faciələrindən biridir. İstanbulun bu dilbər güşəsində Azərbaycan adına gözəl bir parkın salınması və bu abidənin ucaldılması xalqlarımızın tarixi bağlılığı ilə mövcud olan Azərbaycan və Türkiyə qardaşlığına bariz nümunədir. Bu parkın salınması və Xocalı abidəsinin ucaldılması acılarımıza göstərilən ehtiram, eləcə də sülh çağırışıdır. Saxta "erməni soyqırımı" mövzusu ilə illərdən bəri Türkiyəyə qarşı ədalətsiz mövqe nümayiş etdirən qüvvələr yaxşı olar ki, Xocalı soyqırımına ədalətli mövqe sərgiləsinlər.

Azərbaycan Prezidenti İlham Əliyev ilə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın dostluq və qardaşlıq münasibətlərini yüksək qiymətləndirən Əli Həsənov qeyd edib ki, məhz bu doğma münasibətin nəticəsində ölkələrimiz daim bir-birinin maraqlarını müdafiə edirlər.

Xocalı soyqırımının dünya birliyi tərəfindən tanınmasının zəruriliyini vurğulayan Prezidentin köməkçisi Əli Həsənov Heydər Əliyev Fondu, xüsusilə onun prezidenti, UNESCO və ISESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın bu sahədə gördüyü işlərin tədqirəlayiq olduğunu qeyd edib. O bildirib ki, Fondun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə həyata keçirilən "Xocalıya ədalət!" beynəlxalq məlumatlandırma kampaniyası sayəsində bu sahədə böyük nəticələr əldə olunub.

Azərbaycan Dostluq Parkı və buradakı abidəyə görə Türkiyə hökumətinə dərin minnətdarlığını ifadə edən Əli Həsənov diqqətə çatdırıb ki, Xocalı soyqırımı abidəsi millətlər, xalqlar və sivilizasiyalar arasında sülhə, dostluğa, qardaşlığa sədaqətin rəmzidir. "Təcavüzkar Ermənistan dövlətinin antibəşəri vəhşiliyindən fərqli olaraq Azərbaycanın və Türkiyənin heç kimin torpağında gözü yoxdur. Biz insanların dostluq və qardaşlıq şəraitində yaşamasını istəyirik. Biz xalqlarımızın təhlükəsizliyi üçün tədbirlər görürük. Biz nəhəng layihələr sayəsində böyük bir coğrafiyada iqtisadi inkişafı gerçəkləşdiririk. Təcavüzkar Ermənistan və erməni millətçi dairələri isə bütün dövrlərdə olduğu kimi, indi də havadarlarına arxalanaraq bölgəyə münaqişə və müharibə, fəlakət və qarşıdurma gətiriblər. Biz azərbaycanlılar isə sülh, dialoq və firavanlıq ovqatı aşılayırıq. Ermənilər vəhşi hərəkətləri ilə, qan tökməklə, ailələri məhv etməklə, bizim xalq isə humanist fəaliyyəti ilə fərqlənir", - deyə Əli Həsənov qeyd edib.

Böyük şair və dramaturq Hüseyn Cavidin bütün bəşəriyyət üçün örnək olan sülh çağırışlarından misraları xatırladan Prezidentin köməkçisi bildirib ki, ermənilər qan tökməyə, biz isə sülh yaratmağa, birlikdə dostluq şəraitində yaşamağa çağırış edirik və buna çalışırıq.

Çıxışının sonunda "Bağcılar" sözünün kökü barədə fikir və mülahizələrini bölüşən Əli Həsənov artıq reallığa çevrilən bu ideyanın müəlliflərinə, onun həyata keçirilməsində zəhməti olan hər kəsə, xüsusilə yerli sakinlərə dərin təşəkkürünü ifadə edib. O əminliklə qeyd edib ki, Bağcılar rayonunda həyata keçirilən bu əzəmətli layihə qardaş ölkələrimiz və xalqlarımız arasındakı tarixi bağların daha da möhkəmlənməsinə töhfə verəcək.

Xocalı soyqırımının Türkiyədə böyük bir üzüntü, ümumxalq hüzn, yaddaşlardan silinməyən faciə kimi qəbul edildiyini diqqətə çatdıran İstanbul valisi Vasip Şahin deyib ki, bu dərd bundan sonra da unudulmayan acı kimi insanlarımızın qəlbində yaşayacaq. "Qarabağ acısını ən azı öz dərdimiz kimi yaşayırıq. Bu problemin həllində hər zaman Azərbaycanın yanındayıq. Hər zaman olduğu kimi, indi də, gələcəkdə də bizim üçün Can Azərbaycan var!", - deyə vali qeyd edib. Ulu öndər Heydər Əliyevin "Bir millət, iki dövlət", Türkiyə Respublikasının banisi Mustafa Kamal Atatürkün "Azərbaycanın sevinci sevincimiz, kədəri kədərimizdir" ifadələrini xatırladan İstanbul Böyükşəhər Bələdiyyəsinin sədri Mövlud Uysal deyib ki, iki qardaş ölkəni eyni tarix, eyni din, eyni mədəniyyət birləşdirir. Mövlud Uysal qeyd edib ki, Xocalı soyqırımı heç vaxt unudulmayan bəşəri faciədir.

Açılışı keçirilən Azərbaycan Dostluq Parkı və burada ucaldılmış Xocalı soyqırımı abidəsinin ideya olaraq ortaya çıxması barədə məlumat verən Bağcılar rayon bələdiyyəsinin sədri Lokman Çağrıcı bildirib ki, Azərbaycanın İstanbuldakı baş konsulu tərəfindən irəli sürülən bu təklif böyük məmnuniyyətlə qəbul edilib. O qeyd edib ki, Xocalı soyqırımı Türkiyənin də dərdidir. Bu soyqırımına ədalət tələb etmək də, yaddaşlardan silinməməsi üçün tədbirlər görmək də mənəvi borcumuzdur. Xocalı sakini Səbinə Məhərrəmova 7 yaşı olarkən erməni cəlladlarının vəhşiliyinin şahidi olduğunu qeyd edərək bildirib ki, soyqırımı gecəsi özü və bir qardaşından başqa ailəsinin bütün üzvləri məhv edilib. Soyqırımının dəhşətlərini bir an da olsa unuda bilmədiyini söyləyən Səbinə Məhərrəmovanın kövrək sözləri iştirakçıları duyğulandırıb.

Çıxışlarda saxta "erməni soyqırımı" iddiasının ortaya çıxmasının siyasi səbəbləri, bu əsassız məsələnin Türkiyəyə qarşı təzyiq vasitəsi olması, Çanaqqala zəfəri, 1905-1907-ci, 1918-1920-ci illərdə ermənilərin azərbaycanlılara qarşı həyata keçirdikləri soyqırımları, 1918-ci ildə Qafqaz İslam Ordusunun rəşadəti sayəsində Bakının qurtuluşu, 1948-1953-cü illərdə Ermənistan ərazisindən soydaşlarımıza qarşı həyata keçirilən deportasiya, o cümlədən sovet hakimiyyətinin süqutu illərində ermənilərin Dağlıq Qarabağa qarşı ortaya atdıqları ərazi iddiaları əsasında təcavüzkar Ermənistanın Azərbaycana qarşı işğalçılıq siyasətinin ağır nəticələri, həmçinin Ermənistanın BMT və digər beynəlxalq təşkilatların qərar və qətnamələrinə məhəl qoymaması, bu terrorçu dövlətin böyük bir coğrafiya sülh və əmin-amanlıq üçün təhlükə mənbəyinə çevrilməsi, eləcə də Suriya ərazisindən Türkiyəyə yaradılan böyük təhlükələrin qarşısının alınmasının vacibliyi barədə fikirlər səslənib. Vurğulanıb ki, Azərbaycanın işğal altında olan torpaqlarını azad etmək üçün bütün vasitələrdən istifadə etməyə, o cümlədən Türkiyənin də istər ölkə daxilində, istərsə də öz dövlət sərhədi boyunca terror risklərini aradan qaldırmağa, bütün təhlükəsizlik tədbirlərini həyata keçirməyə haqqı var.

Rəsmi hissədən sonra Azərbaycan Dostluq Parkı və Xocalı soyqırımı abidəsinin rəmzi açılışını bildirən lent kəsilib. Sonra iştirakçılar parkda ağac əkiblər.

# Naxçıvanda Xocalı soyqırımı qurbanlarının xatirəsi yad edilib

***Fevralın 26-da Naxçıvan şəhərinin Dövlət Bayrağı Meydanındakı Xatirə kompleksində Xocalı soyqırımının iyirmi altıncı ildönümü ilə əlaqədar tədbir keçirilib. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov abidə önünə gül qoyub, Xocalı soyqırımı qurbanlarının xatirəsini dərin ehtiramla yad edib. Nazirlik, komitə, idarə, müəssisə və təşkilatların rəhbərləri, hərbi hissələrin komandirləri, ictimaiyyətin nümayəndələri də abidə önünə gül qoyublar. Sonra Xocalı soyqırımı qurbanlarının xatirəsi bir dəqiqəlik sükutla yad edilib.***



Azərbaycan torpaqları hesabına öz dövlətlərini yaradan ermənilər 1905-1907, 1918-1920, 1948-1953, 1988-1993-cü illərdə azərbaycanlılara qarşı terror, kütləvi qırğın, deportasiya və etnik təmizləmə həyata keçiriblər. 1992-ci il fevralın 26-da törədilən Xocalı soyqırımı da 200 il ərzində erməni millətçilərinin və onların havadarlarının Azərbaycan xalqına qarşı apardıqları soyqırımı siyasətinin davamı, tarixdə erməni qəddarlığının daha bir təzahürüdür.




1992-ci il fevralın 25-dən 26-na keçən gecə erməni silahlıları, Dağlıq Qarabağda yerləşdirilmiş erməni terrorçu dəstələri, keçmiş Sovet ordusunun ermənilərdən ibarət 366-cı motoatıcı alayının zirehli texnikası və hərbçiləri Xocalı şəhərinə basqın edərək dinc sakinləri xüsusi amansızlıqla qətlə yetirdilər. Həmin gün erməni millətçiləri ağbirçək analara, ağsaqqallara, südəmər körpələrə aman vermədilər. Dinc əhaliyə qarşı həyata keçirilən bu soyqırımı təkcə Azərbaycan xalqına deyil, bütün insanlığa qarşı yönəldilmiş ən ağır cinayətdir. Soyqırımı zamanı 106-sı qadın, 63-ü uşaq, 70-i ahıl insanlar olmaqla, 613 Xocalı sakini işgəncə ilə öldürüldü. 25 uşaq hər iki valideynini, 130 uşaq valideynlərindən birini itirdi, 487 nəfər əlil oldu. 8 ailə tamamilə məhv edildi, 1275 nəfər əsir götürüldü.

Xocalı soyqırımını törətməkdə düşmənin məqsədi nə idi? Niyə məhz Xocalı hədəf alınmışdı? Məqsəd - bir tərəfdən Qarabağın dağlıq hissəsində azərbaycanlılardan ibarət olan strateji əhəmiyyətli məntəqəni zəbt etmək, amansız işgəncə metodları ilə Azərbaycan xalqının gözünü qorxutmaq idisə, digər tərəfdən bu ərazilərin Azərbaycan türklərinə məxsus olduğunu sübut edən qədim abidələri tarixdən birdəfəlik silmək idi. Təsadüfi deyil ki, Xocalı şəhəri işğal olunandan dərhal sonra onun ətrafında Azərbaycan türklərinə məxsus tarixi abidələr, Xocalı-Gədəbəy mədəniyyətinin qalıqları, Son Tunc və Erkən Dəmir dövrü mədəniyyətinə aid Xocalı kurqanları, siklop tikililər, dünyanın ən qədim məzarlıqlarından sayılan Xocalı qəbiristanlığı xüsusi texnika ilə dağıdılaraq məhv edilib. Həmin dövrdə öz vətəndaşlarının təhlükəsizliyini və müdafiəsini təmin etməyə borclu olan hakimiyyət dairələri Xocalı soyqırımına biganə münasibət göstərib, onu xalqdan gizlətməyə çalışıblar.



Xocalı soyqırımına ilk hüquqi-siyasi qiyməti ümummilli liderimiz Heydər Əliyev verib, hələ Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri işlədiyi dövrdə xüsusi bəyanatla Xocalı soyqırımını törədənləri ittiham edib. Ümummilli Liderimizin 1993-cü ildə Azərbaycanda yenidən siyasi hakimiyyətə qayıdışından sonra Xocalı soyqırımına dövlət səviyyəsində hüquqi-siyasi qiymət verilib. 1994-cü il fevralın 24-də Azərbaycan Respublikası Milli Məclisinin qərarı ilə hər il fevralın 26-sı "Xocalı Soyqırımı Günü" elan olunub.

Dahi şəxsiyyət deyirdi: "Bu faciə xalqımızın, vətəndaşlarımızın öz Vətəninə, torpağına, millətinə sadiqliyinin nümunəsidir. Xocalıda şəhid olanlar, həlak olanlar Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda mübarizədə, Azərbaycanın müstəqilliyi uğrunda mübarizədə şəhid oldular, özlərini qurban verdilər. Onların şəhidliyi gələcək nəsillərimiz üçün qəhrəmanlıq nümunəsi olacaq və onların xatirəsi qəlbimizdə əbədi yaşayacaqdır".

Bu gün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə haqq səsimizin dünya ictimaiyyətinə çatdırılması, Xocalı soyqırımının tanınması istiqamətində ardıcıl iş aparılır. Son illər Xocalı həqiqətlərinin dünyada tanıdılması, erməni millətçiliyinin beynəlxalq miqyasda ifşası sahəsində məqsədyönlü və sistemli iş aparılır. Heydər Əliyev Fondunun təşəbbüsü ilə "Xocalıya ədalət!" kampaniyası çərçivəsində çoxsaylı vətəndaş cəmiyyəti institutları, gənclər təşkilatları və diaspor qurumları bu sahədə birgə səmərəli fəaliyyət göstərirlər. Bu istiqamətdə görülən işlərin davam etdirilməsi və "Xocalıya ədalət!" kampaniyasının beynəlxalq səviyyədə genişləndirilməsi məqsədilə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 2014-cü il fevralın 13-də "Xocalıya ədalət!" kampaniyasının keçirilməsi ilə bağlı tədbirlər haqqında" Sərəncam imzalayıb. Xocalı həqiqətlərinin tanıdılması istiqamətində aparılan işin nəticəsidir ki, bu gün erməni faşizminin cinayətkar əməllərini beynəlxalq ictimaiyyət hiddətlə qarşılayır, dünyanın hər yerində Xocalı soyqırımına etiraz edənlərin sayı artır.

Dünya ictimai fikri Xocalı həqiqətlərini qəbul etməyə başlayır. Bir sıra dövlətlər, beynəlxalq təşkilatlar, eyni zamanda, nüfuzlu qurumlar bəşəriyyətə qarşı yönəldilmiş bu cinayətin əsl mahiyyətini anlayaraq qətliamı kəskin şəkildə pisləyib. 2010-cu ildə İslam Konfransı Təşkilatına üzv ölkələrin parlamentləri "Xocalıya ədalət!" kampaniyasını dəstəkləyən xüsusi qətnamə qəbul edib. Qətnamədə Xocalı faciəsi "Erməni silahlı qüvvələri tərəfindən dinc əhaliyə qarşı kütləvi soyqırımı" və "İnsanlığa qarşı cinayət" kimi qiymətləndirilib. Dünyanın 15 aparıcı ölkəsinin parlamentləri Xocalı soyqırımını tanıyıb. Bununla yanaşı, Amerika Birləşmiş Ştatlarının 22 ştatının qanunverici orqanı da Xocalı faciəsinin soyqırımı kimi tanınması barədə qərar çıxarıb.

Fevralın 26-sı təkcə Azərbaycan xalqının faciə tarixi deyil. Bu, eyni zamanda, ölkəmizin ərazi bütövlüyünün bərpası və erməni işğalına son qoyulması uğrunda mübarizə tariximizin də şanlı səhifəsidir. Bu gün hər birimiz Azərbaycan Ordusunun gücü, qüdrəti ilə fəxr edir, qürur hissi keçiririk. 2016-cı ilin aprel döyüşləri, ötən il Naxçıvanda keçirilən möhtəşəm hərbi parad, ölkəmizdəki "xalq-ordu" birliyinin sarsılmaz vəhdəti düşməndə qorxu yaradıb.

Ali Baş Komandanımızın hücum əmrini gözləyən qüdrətli ordumuz şəhidlərimizin qisasını alacaq, üçrəngli bayrağımız Şuşada, Xankəndidə dalğalanacaqdır. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin dediyi kimi: "Xocalı soyqırımını törətməkdə düşmənin məqsədi Azərbaycan xalqını sarsıtmaq, suverenlik və ərazi bütövlüyü uğrunda mübarizədən çəkindirmək və torpaqlarımızı zorla ələ keçirmək olsa da, bu ağır faciə xalqımızı daha da mətinləşdirmiş, qəhrəman oğul və qızlarımızı müqəddəs Vətən və milli dövlətçiliyimiz naminə qətiyyətli və mütəşəkkil mübarizəyə səfərbər etmişdir".

Həmin gün muxtar respublikanın rayonlarında da Xocalı soyqırımının 26-cı ildönümü ilə bağlı tədbirlər keçirilib.

## Dmitri Savelyev: "Sağalmaz yara olan Xocalı barədə bütün dünyaya daim xatırlatmağı çox vacib hesab edirəm"



*26 fevral 1992-ci il faciəvi tarixindən - Azərbaycanın Xocalı şəhərinin yüzlərlə sakininin erməni silahlı birləşmələri tərəfindən şəhərə hücumu nəticəsində öldürüldüyü və ya itkin düşdüyü tarixdən dörddəbir əsrdən çox müddət ötür. Rusiya Dövlət Dumasının deputatı, Rusiya-Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri Dmitri Savelyev AZƏRTAC-ın müxbirinə müsahibəsində bütün dünya üçün Xocalı faciəsini unutmamağın nə dərəcədə vacib olduğu barədə danışıb.*

*-Dmitri İvanoviç, sizin fikrinizcə Xocalı faciəsi soyqırımı aktıdırmı?*

-Şübhəsiz. Mənim fikrimcə, Xocalının dinc sakinlərinə tutulan divan XX əsrin qorxulu faciələri sayılan Xatın, Xirosima, Gernika və ya Sonqmi hadisələri ilə bir sıradadır. Hazırda fakt olaraq sübut edilib ki, Dağlıq Qarabağ münaqişəsinin gedişində Xocalının azərbaycanlılardan və mesheti türklərindən etnik təmizlənməsi planlaşdırılmış akt idi. Soyqırımının statistikası dəhşət doğurur: 613 nəfər qətlə yetirilib, 487 nəfər şikəst olub, 150 nəfər itkin düşüb. Onların sırasında qadınlar, uşaqlar, qocalar var. Bu, adi bir şey deyil, insanlığa qarşı qəsdən törədilən cinayətdir. Lakin Xocalı soyqırımının səbəbkarları hələ də məsuliyyətə cəlb olunmayıblar, beynəlxalq təşkilatlar isə bu məsələdə ikili standartlar siyasəti nümayiş etdirirlər.

*-Əgər cəzasızlıq regionda sülhün bərqərar edilməsinə və ədalətin bərpasına mane olursa, bu vəziyyətdə nə etmək lazımdır?*

-Məncə, bu vəziyyətdə Azərbaycan məhz indiki kimi hərəkət etməli, yəni Avropa ölkələrinin ictimai-siyasi həyatında fəaliyyətini məqsədyönlü şəkildə aktivləşdirməlidir. Məsələn, Finlandiya-Azərbaycan parlamentlərarası dostluq qrupunun tədbirində Finlandiya parlamentinə təqdim olunan müraciətdə Xocalı faciəsinə hüquqi qiymət verilməsi xahiş olunurdu. Azərbaycan səfirliyinin köməkliyi ilə Almaniya Bundestaqında təşkil olunan simpoziumda isə iştirakçılara Xocalı soyqırımı barədə geniş məlumat təqdim olunmuşdu. Məsəl var, deyərlər "damcı daşı dələr". Bu səylər gec-tez öz səmərəsini verəcək, beynəlxalq ictimaiyyəti Azərbaycan xalqına qarşı törədilən cinayətkar əməlləri bütün dünyada pisləməyə və cinayəti törədənlərin beynəlxalq mühakiməsinə nail olmağa səfərbər edəcək.

*-Xocalı faciəsinə münasibətdə ikili standartlar siyasətini dəyişmək mümkündürmü?*

-Hazırda artıq bütün dünyada bu proses baş verir. Getdikcə daha çox ölkə Xocalıda baş verən hadisələri soyqırımı kimi tanıyır və səbəbkarları pisləyir. İki ay bundan əvvəl Paraqvayın Milli Konqresi belə bəyanat qəbul edib. İslam Əməkdaşlıq Təşkilatının parlament ittifaqının yanvar ayında Tehranda keçirilən XIII sessiyasında iştirakçı ölkələr Azərbaycana qarşı törədilən hərbi təcavüzü qəti şəkildə pislədilər. Axı Xocalı qətliamı bütün türk dünyasının faciəsidir. Türkiyənin Bursa bələdiyyəsi Xocalı parkının salınmasına başlayır, Sakarya əyalətində Xocalı soyqırımı qurbanlarının xatirəsinə ucaldılmış abidənin açılışı olub. Azərbaycanın siyasəti tarixi ədalətin bərpasına yönəldilib. Ona görə də dünyanın siyasi səhnə arxasında bu cür səylərə məhəl qoyulmaması mümkün deyil.

*-Sizin fikrinizcə, dünya tarixində Xocalı soyqırımına bənzər hadisələrin bir daha təkrarlanmaması üçün nə etmək vacibdir?*

-Məncə, Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə aparılan "Xocalıya ədalət!" kampaniyası yüksək səmərəlilik nümayiş etdirir. Təkcə son vaxtlarda Qırğızıstanda və Çexiyada Xocalı faciəsinə həsr edilmiş bir neçə kitab nəşr olunub. Rus dilində nəşr olunan "İrs-Naslediye" Azərbaycan beynəlxalq jurnalının növbəti nömrəsində azərbaycanlıların soyqırımı mövzusuna həsr edilmiş çoxlu məqalə dərc olunub.

Azərbaycan Dağ Yəhudiləri İcmasının başçısı Milix Yevdayevin bu yaxınlarda oxuduğum məqaləsi məni heyrətə gətirdi. M.Yevdayev həmin məqalədə vaxtilə xeyli sayda yəhudini ölümdən xilas etmiş azərbaycanlı Şahhüseyn Usubov barədə danışır. İkinci Dünya müharibəsi zamanı faşistlərə əsir düşən Usubov Osvensimə göndərilir. Əsir düşərgəsinə çatdırıldığı gün o, yəhudilərin məhv edilməsi üçün seçilmələrinin şahidi olur. Usubov başa düşür ki, nasistlər yəhudiləri müsəlmanlardan ayırmaq üçün onlardan Quranın kəlmələrini deməyi tələb edirlər. Seçim davam etdikcə, Şahhüseyn mümkün qədər çox yəhudinin həyatını xilas etmək məqsədilə onlara Qurandan kəlmələr öyrədir. Nəticədə, bu əməlinə görə düşmən Şahhüseyni döyüb ölümcül hala salır. Lakin ən dəhşətlisi odur ki, onilliklər sonra, əmin-amanlıq dövründə - Xocalı qətliamı zamanı Usubovlar nəslinin 25 üzvü vəhşicəsinə öldürülüb və onların ölümündə təqsirkar olanlar mərhəmət barədə düşünməyiblər.

Mən sağalmaz yara olan Xocalı barədə bütün dünyaya daim xatırlatmağı çox vacib hesab edirəm. Axı Yer kürəsinin hər bir sakini fikirləşməlidir ki, buna bənzər faciə onun evinə gələ bilər. Ona görə də hər kəs hər hansı soyqırımı aktının qarşısını almağa və yol verməməyə çalışmalıdır.

## Bəhruz Quliyev: "Azərbaycan mətbuatı Xocalı faciəsinin dünya ictimaiyyətinə çatdırılması prosesində aktiv iştirak edir"



***"Xocalı soyqırımı mahiyyətinə görə bütövlükdə insanlığa qarşı törədilmiş cinayətdir, vəşhilikdir. Xocalı soyqırımı dünya tarixində ən qəddar və amansız qətliamlardan biridir. Erməni hərbi birləşmələri 366-cı motoatıcı alayın dəstəyi ilə azərbaycanlılara qarşı məhz belə bir dəhşətli cinayət törədiblər". Bu fikirləri yap.org.az saytına "Səs" qəzetinin baş redaktoru Bəhruz Quliyev deyib.***

B.Quliyev bildirib ki, ötən əsrdə ermənilər iki dəfə xalqımıza qarşı soyqırımı törədiblər. Bunlardan birincisi 1918-ci ilin mart qırğınları, ikincisi isə 1992-ci il fevralın 26-da törədilmiş Xocalı soyqırımıdır. Onun sözlərinə görə, hər iki hadisənin mahiyyətində vandalizm siyasəti, dinc, günahsız insanlara qarşı amansız qətliamlar dayanır.

"Xocalı hadisəsində yüzlərlə insan, o cümlədən, uşaqlar, qadınlar, qocalar görünməmiş vəhşiliklə qətlə yetiriliblər. Məhz bu qətliamın səbəbi də bu insanların milli, dini, etnik mənsubiyyətidir. Onlar azərbaycanlı olduqlarına görə qətlə yetirildilər. Bu hadisə baş verdikdən sonra Xocalı həqiqətlərinin dünyada tanıdılması istiqamətində dövlət səviyyəsində sistemli iş aparılır. Bu faciəyə ilk dəfə olaraq Ümummilli liderimiz Heydər Əliyevin təşəbbüsü ilə siyasi-hüquqi qiymət verilib. Hazırda Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasət nəticəsində dünyanın bir sıra dövlətləri Xocalı faciəsini soyqırımı aktı kimi tanıyıblar. Eləcə də,Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla xanım Əliyevanın təşəbbüsü ilə reallaşan "Xocalıya ədalət!" kampaniyası nəticəsində hər il dünyanın əksər ölkələrində Xocalı həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması istiqamətində tədbirlər keçirilir. Bu kampaniya miqyasına görə böyük əhəmiyyət kəsb edir"-deyə, baş redaktor vurğulayıb.

Azərbaycan mətbuatının Xocalı həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması istiqamətdə vəzifələrindən danışan B.Quliyev qeyd edib ki, mətbuatımız bu prosesdə aktiv iştirak edir. "Necə ki, cəbhədə əsgərlərimiz döyüşə hazır vəziyyətdədir, eyni vəziyyəti jurnalistkamıza da aid etmək olar. Yəni jurnalistlər də döyüş vəziyyətindədir. Çünki torpaqlarımız işğal altındadır və belə olduğu təqdirdə mətbuatımız daim mübarizədə olmalıdır. Bu gün qlobal dünya məkanında intellektual mübarizə gedir və bizim intellekt sahiblərinin də bu baxımdan döyüş meydanına çıxmasına zərurət yaranır. Və jurnalistlər ordusunun intellektual ordu olduğunu nəzərə alsaq, bu gün Azərbaycan jurnalistikası da bu prosesdə fəallığını daha da artırmalıdır. Yəni, Xocalı həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması yalnız dövlətin vəzifəsi yox, hər bir vətəndaşın, o cümlədən KİV nümayəndələrinin əsas vəzifələrindən biridir. 26 ildir ki, dövri mətbuatda, elektron mediada Xocalı soyqırımı ilə bağlı məqalələr, əsərlər yazılır, canlı şahidlərin iştirakı ilə filmlər çəkilir. Bu filmlər, nəşrlər xaricdə də yayılır. Bütün bunlar Azərbaycan mətbuatının Xocalı soyqırımının dünya ictimaiyyətinə çatdırılması prosesində aktiv iştirak etdiyini təsdiqləyir. Bununla belə, gələcəkdə bu proses daha da gücləndirilməlidir"-deyə, B.Quliyev vurğulayıb.

## Dövlət Sərhəd Xidmətinin hərbi hissə və bölmələrində Xocalı soyqırımının ildönümü ilə əlaqədar tədbirlər keçirilib







Dövlət Sərhəd Xidmətinin (DSX) bütün hərbi hissə və bölmələrində Xocalı soyqırımının 26-cı ildönümü ilə əlaqədar silsilə tədbirlər keçirilib. DSX-nin mətbuat mərkəzindən AZƏRTAC-a bildiriblər ki, Dövlət Sərhəd Xidməti Aparatında, Azərbaycan İstiqlal Muzeyində və Respublika Hərbi Prokurorluğunun Memorial Soyqırımı Muzeyində keçirilən tədbirlərdə çıxış edənlər XX əsrin 80-ci illərindən başlayaraq erməni millətçilərinin xalqımıza qarşı məqsədyönlü şəkildə apardıqları etnik təmizləmə və təcavüzkarlıq siyasətinin davamı olaraq Xocalıda törətdikləri soyqırımı aktını bütün insanlığa və bəşəriyyətə qarşı yönəldilmiş ən ağır cinayət kimi dəyərləndiriblər. Bu qanlı hadisə zamanı 613 nəfərin, o cümlədən 106 qadının, 63 uşağın, 70 qocanın xüsusi qəddarlıqla qətlə yetirilməsi, 8 ailənin tamamilə məhv edilməsinin, 1275 nəfərin isə girov götürülməsinin bəşəriyyət tarixində silinməz səhifə kimi qalacağı xüsusi vurğulanıb.

Qanlı təcavüzə dövlət səviyyəsində əsl siyasi-hüquqi qiymətin verilməsi ilə bağlı ilk təşəbbüsün ulu öndər Heydər Əliyev tərəfindən irəli sürülməsi, soyqırımı qurbanlarının adlarının əbədiləşdirilməsi ilə bağlı bir sıra fərman və sərəncamların imzalanması qeyd olunub.

Soyqırımı hadisəsinin dünya ictimaiyyətinə çatdırılması istiqamətində Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin apardığı məqsədyönlü siyasətin uğurlu nəticələr verməsi, Azərbaycan xalqına qarşı törədilmiş bu hərbi cinayətin beynəlxalq müstəviyə çıxarılmasının dövlət siyasətinin mühüm istiqamətini təşkil etməsi, soyqırımı nəticəsində həlak olanların xatirəsinə böyük ehtiramın göstərilməsi və şəhid olanların ailə üzvlərinə dövlət qayğısının daha da artırılması məqsədilə görülən işlər barədə tədbir iştirakçılarına ətraflı məlumat verilib. Tədbirlərdə Xocalı soyqırımına həsr olunmuş sənədli filmlər nümayiş etdirilib.

# Xocalı həqiqətləri dünya ictimaiyyətinə çatdırılır

***Ermənistanın terrorçu hərbi birləşmələri tərəfindən Xocalı şəhərinin xüsusi amansızlıqla məhv edilməsinin 26-cı ildönümü, ölkəmizdə olduğu kimi, dünya dövlətlərində də qeyd olunur. Diaspor təşkilatları tərəfindən dünya dövlətlərində keçirilən tədbirlərdə qətlə yetirilən dinc sakinlərin xatirəsi anılır və dünyaya bu soyqırımı barədə həqiqətlər bəyan edilir.***

**KİYEV**

Kiyevdə yerli ictimai-siyasi xadimlərin iştirakı ilə Xocalı qurbanları anılıb. Ukraynanın paytaxtı Kiyevdə Ukrayna Azərbaycanlıları Birləşmiş Konqresinin təşkilatçılığı ilə Xocalı soyqırımına həsr edilmiş anım tədbiri keçirilib. Ukrayna Dövlət İnformasiya Agentliyi "Ukrinform"un binasında təşkil olunan tədbirdə Ukrayna Ali Radasının deputatları, siyasi və ictimai xadimləri iştirak edib. Birləşmiş Ukrayna Azərbaycanlıları Konqresinin sədri Rövşən Tağıyev 1992-ci il fevralın 26-da Azərbaycanın Xocalı şəhərinin azərbaycanlı sakinlərinə qarşı həyata keçirilmiş soyqırımı aktı, Ermənistanın Azərbaycan ərazisinin 20 faizini işğal etməsi və hələ də işğal altında saxlaması faktlarını iştirakçıların diqqətinə çatdırıb. Daha sonra Birləşmiş Ukrayna Azərbaycanlıları Konqresinin Parlament sədri Akif Gülməmmədov, Ali Radanın millət vəkili Serqey Melniçyuk, Krım tatarları və yəhudi icmalarının nümayəndələri çıxış edərək, bu faciəni törədənlərin hələ də cəzasız qalmalarından narahatlıqlarını ifadə ediblər.

## ABERDİN



Şotlandiyada təhsil alan azərbaycanlı gənclər Aberdin şəhərinin mərkəzində Xocalı soyqırımının 26-cı ildönümü ilə bağlı aksiya keçirib. Aksiyada azərbaycanlı tələbələrlə yanaşı, orada yaşayan digər soydaşlarımız da iştirak edib. Aksiya iştirakçıları əllərində Azərbaycan bayrağı və Xocalı soyqırımını əks etdirən plakatlar tutaraq, müxtəlif şüarlar səsləndiriblər. Aksiya çərçivəsində yerli sakinlərə və qonaqlara Xocalı soyqırımı və erməni təcavüzü haqqında məlumatların əks olunduğu broşürlar paylanılıb. Onlara Azərbaycanın cəlb olunduğu Dağlıq Qarabağ münaqişəsi, müharibənin nəticələri, qaçqın və köçkün problemi, eləcə də, bir gecədə məhv edilən Xocalı şəhəri və onun azərbaycanlı sakinlərinin acı taleyi haqqında dolğun məlumat veriblər. Aksiya beynəlxalq təşkilatlara və dünya dövlətlərinə ünvanlanmış müraciətin oxunması ilə başa çatıb. Müraciətdə Xocalı soyqırımının tanınması və hüquqi qiymətin verilməsi, Ermənistanın işğalçı siyasətinə son qoyulması üçün təzyiq göstərilməsi tələb edilir.

## TBİLİSİ

Gürcüstanda fəaliyyət göstərən "Borçalı İrəli" İctimai Birliyinin təşəbbüsü və təşkilatçılığı ilə Tbilisidə Xocalı soyqırımının 26-cı ildönümünə həsr olunmuş "Xocalıya ədalət" yürüş-aksiya keçirilib. İ.Javaxişvili adına Tbilisi Dövlət Universitetinin Azərbaycan Dostlar Kulubunun və Gürcüstan Azər-







baycanlı Hüquqşünaslar Assosiyasiyasının dəstəyi ilə baş tutan aksiyanın iştirakçıları "Rustaveli" metrostansiyasının qarşısından başlayaraq, Gürcüstan parlamentinin Tbilisidəki binasınadək yürüş ediblər. Əllərində Azərbaycan və Gürcüstanın bayraqlarını tutmuş gənclər yürüş boyu "Qarabağa azadlıq!", "Xocalıya ədalət!", "Abxaziyaya və Cənubi Osetiyaya ədalət", "Gürcüstanın və Azərbaycanın torpaqları azad olunsun!" kimi şüarlar səsləndirib.

Xocalı soyqırımının tanıdılması və təbliği üçün "Borçalı İrəli" İctimai Birliyinin gürcü dilində çap etdirdiyi bukletlər yol boyu Tbilisi sakinlərinə və turistlərə paylanılıb. Yürüş parlamentin qarşısında Xocalı qurbanlarının xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başa çatıb. "Borçalı İrəli" İctimai Birliyinin sədri Məhəbbət İmanov jurnalistlərə açıqlamasında bildirib ki, aksiyanın məqsədi əsrin ən dəhşətli və faciəli soyqırımı olan Xocalı qətliamını tanıtmaq və ona hüquqi qiymət verilməsinə nail olmaqdır.

## SİDNEY




Sidney sakinləri Xocalı soyqırımı ilə bağlı məlumatlandırılıb. Xocalı soyqırımının 26-cı ildönümü ilə bağlı Avstraliyanın paytaxtı Sidney şəhərinin mərkəzində məlumatlandırma aksiyası keçirilib. Avstraliya Azərbaycan Assosiasiyası Birliyinin sədri Mikayıl Oytanın təşkilatçılığı ilə baş tutan aksiya çərçivəsində şəhərin mərkəzində Xocalı soyqırımını və erməni vəhşiliklərini əks etdirən stendlər qurulub. Stendlərdə erməni hərbi birləşmələrinin 1992-ci ilin fevralında bir gecədə Xocalı şəhər sakinlərinə qarşı həyata keçirdiyi amansız qətliam və vəhşiliklər barədə məlumatlar əksini tapıb.

Bundan başqa, təşkilatın üzvləri şəhərin sakinlərinə və qonaqlara Xocalı soyqırımı qurbanlarının fotoları, sayı və digər məlumatların əks olunduğu broşürlər paylayıblar. Həmçinin, şifahi şəkildə Ermənistanın Azərbaycan torpaqlarını işğal etməsi, nəticədə, bir milyon insanın qaçqın və məcburi köçkün düşməsi, Xocalıda qadınlara, yaşlılara, uşaqlara qarşı edilmiş vəhşiliklər barədə sakinlərə və qonaqlara məlumat veriblər.

## TÜRKİYƏ




Türkiyənin Uşak Universitetində Xocalı soyqırımı qurbanları anılıb. Türkiyənin Uşak Universitetində Türkiyə-Azərbaycan Dərnəkləri Federasiyasının (TADEF) Uşak şəhər təmsilçiliyinin azərbaycanlı tələbələrinin təşkilatçılığı və İNDEX - Azərbaycan insan kapitalı və inkişaf mərkəzinin dəstəyi ilə Xocalı soyqırımının 26-cı ildönümü ilə bağlı anım mərasimi keçirilib. Tədbirdə universitetin müəllimləri, müxtəlif ölkələrdən olan tələbələr, Azərbaycan icmasının nümayəndələri və yerli ictimaiyyətin təmsilçiləri iştirak edib.

Tədbirə giriş sözü ilə açan Uşak Universitetinin azərbaycanlı tələbəsi, TADEF-in Uşak şəhər təmsilçisi Ramin Seyidov Qarabağda, o cümlədən, Xocalıda, Afrində həlak olan bütün şəhidləri yad edərək, 26 il əvvəl Xocalıda törədilmiş vəhşiliklərdən və soyqırımından bəhs edib.

Universitetin Yeni Türkiyə, Uni Aktiv və Afrika klublarının sədrləri çıxış edərək, Xocalı faciəsindən danışıb. Erməni hərbi birləşmələrinin Xocalıda törətdikləri cinayətlər barədə ilk dəfə burada eşitdiyini deyən afrikalı təmsilçi belə tədbirlərin Azərbaycan həqiqətlərinin təbliği baxımından əhəmiyyətini vurğulayıb.

Daha sonra azərbaycanlı tələbələrin panel çıxışları ilə davam edən müzakirələrdə ermənilərin tarix boyu bəzi ölkələrdə çoxsaylı cinayətlər törətdikləri iştirakçıların diqqətinə çatdırılıb. Müzakirələrin sonunda xarici tələbələrin sualları cavablandırılıb. Müxtəlif ölkələrdən olan gənclər Azərbaycanın dünayda haqlı mövqeyindən danışaraq, bu məsələdə hər zaman Uşakda yaşayan və təhsil alan azərbaycanlıların yanında olduqlarını ifadə ediblər.

## LİVAN

Fevralın 26-da Azərbaycanın Livandakı səfirliyi tərəfindən Xocalı faciəsinin 26-cı ildönümünə həsr olunmuş tədbir keçirilib. Tədbirdə Livanda yaşayan həmyerlilərimiz və yerli ictimaiyyət nümayəndələri iştirak ediblər. Səfirlikdən AZƏRTAC-a bildiriblər ki, Xocalı qurbanlarının xatirəsi bir dəqiqəlik sükutla yad edildikdən sonra Azərbaycanın dövlət himni səsləndirilib.

Ölkəmizin Livandakı səfiri Ağasəlim Şükürov 1992-ci il fevralın 25-dən 26-na keçən gecə erməni silahlı birləşmələ-

# Xocalı həqiqətləri dünya ictimaiyyətinə çatdırılır

rinin keçmiş sovet ordusunun 366-cı motoatıcı alayının hərbi texnikasının köməyi ilə Azərbaycanın Xocalı şəhərində törətdikləri qətliam barədə geniş məlumat verib. Tədbir zamanı Xocalı qurbanlarının fotoşəkillərindən ibarət sərgi nümayiş olunub, iştirakçılara Xocalı soyqırımı, erməni terroru və Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında materiallar təqdim edilib. Bununla yanaşı, səfirlik tərəfindən Livan Prezidenti Mişel Auna, Baş nazir Səad Əl-Həririyə, parlament sədri Nəbih Berriyə, Xarici İşlər və Mühacirlər Nazirliyinə, Livanda akkreditə olunmuş diplomatik nümayəndəliklərə və yerli KİV-ə Xocalı soyqırımının 26-cı ildönümünə dair press-reliz, eləcə də Prezident Administrasiyasının rəhbəri, akademik Ramiz Mehdiyevin cari ildə Livanın "Delta Dərin Araşdırmalar Mərkəzi" tərəfindən ərəb dilində nəşr edilmiş "Dağlıq Qarabağ. Məxəzlərdən oxunmuş tarix" kitabının nüsxələri təqdim olunub.

## İRAN



Ermənistanın Azərbaycana təcavüzü nəticəsində törədilmiş Xocalı soyqırımının 26-cı ildönümü ilə əlaqədar ölkəmizin İrandakı səfirliyində anım mərasimi keçirilib. Müqəddəs "Qurani-Kərim"dən ayənin oxunması ilə başlayan mərasimdə İran Xarici İşlər Nazirliyinin rəsmiləri, Tehranda akkreditə olunmuş diplomatik korpusun və ictimaiyyət nümayəndələri, yerli KİV-lərin təmsilçiləri iştirak ediblər. Səfirliyin əməkdaşları fars və ingilis dillərində çıxış edərək Ermənistanın Azərbaycan torpaqlarını işğal etməsi, Xocalıda törətdikləri qətliam, Dağlıq Qarabağda azərbaycanlılara məxsus tarixi, dini və mədəni abidələri məhv etmələri haqqında geniş məlumat veriblər.

Qeyd olunub ki, bütün beynəlxalq qanunları tapdalayan Ermənistan 1992-ci il fevralın 25-dən 26-na keçən gecə qədim Azərbaycan şəhəri olan Xocalını mühasirəyə alaraq misli görünməmiş soyqırımı həyata keçiriblər. Uşaqlara, qadınlara və qocalara rəhm etməyən erməni silahlı birləşmələri 613 nəfəri xüsusi qəddarlıqla öldürüb. Onlardan 63 nəfəri uşaq, 106 nəfəri qadın, 70 nəfəri isə qocalar idilər. Faciə zamanı 8 ailə tamamilə məhv edilib, 487 nəfər şikəst olub. Onlardan 76 nəfəri hələ yetkinlik yaşına çatmamışdı. Bundan əlavə, 1275 nəfər əsir götürülüb, 150 nəfərin taleyindən indiyədək heç bir məlumat yoxdur.

İranın Azərbaycandakı keçmiş səfiri Möhsün Pakayin çıxış edərək Xocalı şəhidlərinə uca Allahdan rəhmət diləyib, ölkəmizdə işlədiyi müddətdə faciə barədə eşitdiklərindən və gördüklərindən danışıb. Azərbaycanın İrandakı səfiri Bünyad Hüseynov xalqımızın kədərini bölüşmək üçün mərasimə toplaşanlara minnətdarlığını ifadə edib. Səfir Azərbaycan xalqının və Xocalı sakinlərinin beynəlxalq ictimaiyyətdən Xocalı soyqırımına ədalətli hüquqi-siyasi qiymət verilməsini gözlədiklərini vurğulayıb.

## HAAQA

Niderlandda yaşayan azərbaycanlılar Kamperfoeliestraat məzarlığında yerləşən Xocalı abidəsini ziyarət edərək soyqırımı qurbanlarının xatirəsini yad ediblər. Ziyarət Azərbaycan Respublikasının Niderland Krallığındakı səfirliyi və



Azərbaycan-Türk Mədəniyyət Dərnəyinin birgə təşkilatçılığı ilə baş tutub. Ziyarətçilər abidənin önünə əklil və tər güllər qoyub, Xocalı faciəsi qurbanlarının xatirəsini bir dəqiqəlik sükutla anıblar.

Azərbaycanın Niderlanddakı müvəqqəti işlər vəkili Cəlal Mirzəyev tədbirdə çıxış edərək deyib ki, Xocalı soyqırımı müasir Azərbaycan tarixinin qan yaddaşıdır. Bu faciə Niderlandda yaşayan azərbaycanlılar tərəfindən də unudulmamalı və unutdurulmamalıdır. Xocalı soyqırımına siyasi-hüquqi qiymət 1994-cü ildə ulu öndər Heydər Əliyev tərəfindən verilib. Məhz həmin ildən etibarən istər ölkə daxilində, istərsə də xaricdə bu faciənin dünya ictimaiyyətinə çatdırılması istiqamətində məqsədyönlü işlər görülür. Bir sıra ölkələrdə Xocalı soyqırımı parlament səviyyəsində tanınıb. Bu il də Niderlandın müxtəlif şəhərlərində Xocalı soyqırımının yad edilməsi üçün silsilə tədbirlər keçirilir.

Prezident Administrasiyasının sektor müdiri Qafar Əliyev tədbirdə çıxış edərək Xocalı soyqırımının XX əsrin ən dəhşətli faciələrindən biri olduğunu qeyd edib. O, Xocalı faciəsinin dünya ictimaiyyətinə çatdırılması istiqamətində Azərbaycan Prezidenti tərəfindən həyata keçirilən siyasət haqqında məlumat verib.

Türkiyənin Niderlanddakı müvəqqəti işlər vəkili Alper Yüksel ölkəsinin Azərbaycanın kədərini bölüşdüyünü bildirib. Diplomat Türkiyənin hər zaman qardaş ölkə olan Azərbaycanın yanında olduğunu vurğulayıb.

## BİRLƏŞMİŞ ƏRƏB ƏMİRLİKLƏRİ




1992-ci il fevralın 26-da Azərbaycan xalqına qarşı törədilmiş Xocalı soyqırımının 26-cı ildönümü münasibətilə ölkəmizin Birləşmiş Ərəb Əmirliklərindəki səfirliyində anım tədbiri keçirilib. AZƏRTAC xəbər verir ki, tədbirdə səfir Daşqın Şikarov, Azərbaycanın Dubay şəhərində baş konsulu Cavidan Hüseynov, səfirliyin və baş konsulluğun əməkdaşları, ölkəmizin BƏƏ-dəki ticarət nümayəndəsi Elnur Əliyev, Abu-Dabi və Dubay əmirliklərində yaşayan həmvətənlərimiz iştirak ediblər.

Xocalı faciəsinin və Azərbaycanın müstəqilliyi naminə həyatlarını qurban vermiş bütün şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edildikdən sonra səfir Daşqın Şikarov çıxış edərək tək Azərbaycan xalqına yox, bütün bəşəriyyətə qarşı törədilmiş amansız Xocalı soyqırımı barədə danışıb. Soyqırımına siyasi-hüquqi qiymətin ilk dəfə Azərbaycanın ümummilli lideri Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra verildiyini bildirən səfir, Xocalı barədə həqiqətlərin dünya miqyasında yayılması məqsədilə Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun böyük işlər gördüyünü bildirib. O, Fondun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə reallaşdırılan "Xocalıya ədalət!" beynəlxalq kampaniyası çərçivəsində dünyanın bir çox ölkələrində diplomatik nümayəndəliklərimiz və diaspor təşkilatlarımız tərəfindən müxtəlif tədbirlərin həyata keçirildiyini, filmlərin çəkildiyini, musiqilər bəstələndiyini və bu tədbirlər nəticəsində vəhşi təcavüzə düzgün siyasi qiymətin verilməsinə nail olunduğunu vurğulayıb.

## İSVEÇRƏ

Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə həyata keçirilən "Xocalıya ədalət!" beynəl-






xalq təşviqat kampaniyası çərçivəsində İsveçrədə Xocalı faciəsinin 26-cı ildönümü ilə bağlı silsilə tədbirlər keçirilib. Ölkənin paytaxtı Bern şəhərinin mərkəzi "Waisenhausplatz" meydanında baş tutmuş aksiya azərbaycanlıların İsveçrədəki Mədəniyyət Mərkəzi tərəfindən təşkil olunub.

Aksiyada Xocalı faciəsi zamanı həlak olanların xatirəsi bir dəqiqəlik sükutla yad olunub.

Tədbirdə çıxış edən natiqlər Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə həyata keçirilən "Xocalıya ədalət!" kampaniyası barədə danışıblar. Bildirilib ki, Xocalı soyqırımının baş verdiyi amansız hadisələrdən 26 il ötsə də, faciənin əsl səbəbkarları hələ də cəzalandırılmayıb və Ermənistanda yüksək vəzifələr tuturlar. Azərbaycanlı dinc əhaliyə qarşı törədilən soyqırımı aktına İsveçrə və dünya ictimaiyyəti tərəfindən hüquqi qiymətin verilməsinin vacibliyini vurğulanıb.

Daha sonra aksiya iştirakçıları tərəfindən üzərində "Xocalıya ədalət!", "Xocalı hadisələrinə siyasi qiymət verilməlidir!", "Biz torpaqlarımızın azad olunmasını tələb edirik" kimi sözlər yazılan transparantların və ermənilərin qəddarcasına qətlə yetirdikləri Xocalı şəhidlərinin fotolarının əks olunduğu lövhələr nümayiş etdirilib.

**ZÜMRÜD**

## Suraxanıda Xocalı faciəsinin 26-cı ildönümü geniş qeyd edildi



***Suraxanı rayon icra hakimiyyətinin və YAP Suraxanı rayon təşkilatının birgə təşkilatçılığı ilə rayonun 327 nömrəli tam orta məktəbində Xocalı soyqırımının 26-cı ildönümünə həsr olunmuş ümumrayon tədbiri keçirilib.***

Rayon icra hakimiyyəti başçısı yanında Şura üzvlərinin, ictimaiyyətin nümayəndələrinin, rayonda məskunlaşan Xocalı faciəsinin iştirak etdiyi tədbirdə əvvəlcə "Xocalısız 26 il" mövzusunda məktəblilər arasında keçirilmiş rəsm müsabiqəsinin qaliblərinin əl işlərinə baxılıb. Tədbir Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi ilə başlanıb. Sonra Xocalı faciəsinin, o cümlədən, torpaqlarımızın azadlığı uğrunda canlarını qurban vermiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Tədbirdə çıxış edən rayon icra hakimiyyətinin başçısı İlqar Abbasov qeyd edib ki, tarixinin müxtəlif dönəmlərində ermənilər tərəfindən soyqırımına məruz qalan Azərbaycan xalqı növbəti belə faciə ilə 1992-ci ilin qarlı qışında Xocalıda üzləşdi: "Sovetlər imperiyasının süqutu ilə yaranan mürəkkəb tarixi və ictimai-siyasi şəraitdə dövlət müstəqilliyini yenicə qazanan Azərbaycanın üzləşdiyi ərazi itkisi ilə yanaşı, əsrin ən dəhşətli faciələrindən birini yaşaması ölkənin yeni tarixinə qara hərflərlə yazıldı. Xocalı soyqırımı Azərbaycan tarixinə ən dəhşətli və faciəli səhifələrdən biri kimi daxil olmuşdur".

İ.Abbasov çıxışında onu da bildirib ki, XX əsrin sonunda baş vermiş bu faciə təkcə Azərbaycan xalqına deyil, bütün insanlığa və bəşəriyyətə qarşı yönəlmiş ən ağır cinayətlərdən biridir: "Xocalı soyqırımı əsrin Xatın, Xirosima, Naqasaki və Sonqmi kimi dəhşətli faciələri ilə bir sırada dayanır. Erməni separatçılarının Azərbaycan xalqının məhv edilməsinə yönəldilmiş soyqırımı və işğalçılıq siyasətinin davamı olan Xocalı faciəsinə qiymət vermək, yalnız Azərbaycan xalqının Ümummilli Lideri, Ulu Öndər Heydər Əliyevin 1993-cü ildə xalqın tələbi ilə yenidən hakimiyyətə qayıdışından sonra mümkün oldu".

Bildirib ki, Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyev Xocalı soyqırımının dünya ictimaiyyətinə çatdırılması üçün davamlı və ardıcıl fəaliyyətin vacibliyini dəfələrlə vurğulayıb: "Xocalı həqiqətlərinin dünyaya çatdırılması, bu həqiqətlərin beynəlxalq aləmdə yayılması, qətliama obyektiv qiymət verilməsi istiqamətində atılan addımlarda Heydər Əliyev Fondunun müstəsna rolu var". Tədbirdə Suraxanı rayonunda məskunlaşmış Xocalı şəhər sakini, soyqırımı nəticəsində yaxınlarını itirmiş Qədim Abbasov və şəhid anası Saray Quliyeva çıxış ediblər. Sonda 87 nömrəli tam orta məktəbin şagirdlərinin ifasında Xocalı soyqırımına həsr olunmuş ədəbi-bədii kompozisiya göstərilib.

***ZÜMRÜD***

## Qobustanlılar seçkilərdə qüdrətli Azərbaycan naminə səs verəcəklər

*Yeni Azərbaycan Partiyasının Mərkəzi Seçki Qərargahının Qobustan rayon şöbəsində YAP könüllülərilə görüş keçirilib*



***11 aprel 2018-ci ildə keçiriləcək prezident seçkilərində Yeni Azərbaycan Partiyasının Mərkəzi Seçki Qərargahının Qobustan rayon şöbəsində YAP könüllüləri-lə görüş keçirilib. Görüşü YAP Qobustan rayon təşkilatının sədri Füzuli Gülaliyev açaraq partiyanın böyük seçki təcrübəsinə malik olduğunu bildirib: "1993- cü ildən başlayaraq, respublikamızda keçirilən prezident, parlament və bələdiyyə seçkilərinin qalibi olan YAP-ın cəmiyyətdəki yerinin möhkəm olduğunu, insanların ona etimad göstərdiyini dəfələrlə verdikləri səslərlə müşahidə etmişik".***

Təşkilatın sədri seçki prosesinə ciddi şəkildə hazırlıq getdiyini, təşkilat işini partiyanın Proqramı və Seçki Məcəlləsinin müddəalarına uyğun planlı şəkildə davam etdiyini, artıq qərargahda seçkilərə hazırlıqla bağlı bütün tədbirlərin həyata keçirildiyini, məhz bunun nəticəsi olaraq, seçki məntəqələrində qanunla nəzərdə tutulmuş ərazilərdən imzatoplama kampaniyasının yüksək əhval-ruhiyyədə, qısa müddətdə başa çatdığını qeyd edib: "YAP-ın VI Qurultayının qərarı tarixi bir sənəddir və bu qərarı partiyamızın yüz minlərlə üzvü, o cümlədən, xalqımız alqışlayır. YAP-ın VI Qurultayında Cənab İlham Əliyevin Prezidentliyə namizədliyinin irəli sürülməsi bütün xalqımızın arzu və istəyidir".

Tədbirdə YAP könüllülərindən Gəray Ağaməmmədov, Telman Mustafayev və Vüsal İsgəndərov çıxış edərək, qeyd ediblər ki, Azərbaycanda YAP Sədri, ölkə Prezidenti İlham Əliyevə rəqib ola biləcək siyasi qüvvə yoxdur. Çünki Prezident İlham Əliyev bütün fəaliyyətində Ulu Öndər Heydər Əliyev ideyalarına sadiqdir və Ümummilli Liderimizin müəyyən etdiyi inkişaf strategiyasını uğurla davam və inkişaf etdirir. Bütün bunların nəticəsidir ki, ölkəmizdə sabitlik və vətəndaş həmrəyliyi hökm sürür.

Sonda YAP könüllüləri 11 apreldə keçiriləcək seçkilərdə qüdrətli Azərbaycan naminə səs verəcəklərini bildiriblər.

***İnam HACIYEV***

# Avropa Parlamentinin üzvləri Xocalı soyqırımı ilə bağlı bəyanat veriblər

***Avropa Parlamentində (AP) yeni yaradılmış Azərbaycanın Dostları Klubunun üzvləri Xocalı soyqırımının 26-cı ildönümü ilə bağlı bəyanat qəbul ediblər.***

Milli Məclisin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, bəyanatın qəbul edilməsi ilə bağlı təşəbbüs Avropa Parlamentinin Latviyadan olan deputatı, AP Xarici Əlaqələr Komitəsinin üzvü və Azərbaycanın Dostları Klubunun həmsədri Andrey Mamikins tərəfindən irəli sürülüb. Bu bəyanat Xocalı qətliamı ilə bağlı Avropa Parlamenti çərçivəsində qəbul edilmiş ilk sənəddir.

Bəyanatda Azərbaycan xalqının 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Xocalıda törədilmiş amansız cinayətlə üzləşməsi, nəticədə 613 mülki şəxsin, o cümlədən 106 qadının, 63 uşağın və 70 qocanın həyatını itirməsi, yüzlərlə insanın ağır yaralanması və 1275 nəfərin girov götürülməsi faktı öz əksini tapıb. Sənəddə AP üzvləri Xocalı qətliamı nəticəsində həyatını itirənlərin yaxınlarına başsağlığı verdiklərini, ailələrinin dərdlərinə şərik olduqlarını bildirir və Xocalı faciəsi kimi insanlıq əleyhinə yönəlmiş cinayətlərin bir daha baş verməməsi üçün Xocalı qətliamının xatırlanmalı olduğunu vurğulayırlar.

Bəyanatı şərh edən Avropa İttifaqı-Azərbaycan Parlament Əməkdaşlıq Komitəsinin həmsədri Cavanşir Feyziyev qəbul olunan sənədin 26 il əvvəl Xocalıda ermənilər tərəfindən törədilmiş soyqırımına beynəlxalq təşkilatlar tərəfindən lazımi qiymətin verilməsi üçün atılan mühüm addım olduğunu bildirərək deyib: "Avropa Parlamenti mütəmadi olaraq həm Avropa qitəsində, həm də bütövlükdə dünyada baş verən hadisələrə öz rəyini bildirir və belə bir qurumun 22 üzvü tərəfindən Xocalı soyqırımına diqqət ayrılması, törədilmiş cinayətlərə siyasi qiymət verilməsi, bu cinayət nəticəsində həyatını itirənlərin və onların ailələrinin yad edilməsi, əlbəttə ki, vacib hadisədir. Hazırda Avropa Parlamentində 28 ölkə 8 siyasi qrupla təmsil olunur. Bəyanatı imzalayan üzvlərin 28 ölkədən 13-nü və 8 siyasi qrupdan 6-sını təmsil etməsi də bu mənada mühüm göstəricidir".



Deputat daha sonra deyib: "Xocalıda həyatını itirmiş əziz soydaşlarımızın ruhu və onların sağ qalan ailə üzvləri qarşısında bizim ən böyük borcumuz həqiqətləri dünyaya çatdırmaq, dünya birliyinin o gecə Xocalıda törədilən qətliamı soyqırımı kimi tanımasına nail olmaqdır. AP üzvlərinə həqiqətlərimizin çatdırılmasını sistemli şəkildə elə təmin etməliyik ki, erməni lobbisinin və bu lobbinin təsiri altında fəaliyyət göstərən bir qrup AP üzvünün ölkəmiz əleyhinə apardığı qərəzli anti-Azərbaycan fəaliyyətin qarşısı alınsın. Bu mənada, Avropa Parlamentinin üzvləri tərəfindən bəyanat qəbul edilməsi çox mühüm bir addımdır. AP üzvlərinin Azərbaycanı daha yaxından tanıması və ölkəmizlə bağlı həqiqətləri öyrənərək müvafiq addımlar atması üçün komitəmizin üzvləri bundan sonra da fəal şəkildə iş aparacaqlar".

Avropa Parlamenti üzvləri tərəfindən qəbul edilən bəyanatı yüksək qiymətləndirən Avropa İttifaqı-Azərbaycan Parlament Əməkdaşlıq Komitəsinin üzvü, deputat Azər Kərimli isə bildirib ki, bu bəyanat münasibətlərin bərpasından sonra keçən son bir ildə Avropa Parlamentinin üzvləri ilə aparılan intensiv və məqsədyönlü işin nəticəsidir və Azərbaycanın parlament diplomatiyasının növbəti uğurudur.

Deputat bəyanatın Avropa Parlamentində yenicə yaradılmış Azərbaycanın Dostları Klubunun üzvləri tərəfindən irəli sürülməsini və dəstəklənməsini vurğulayaraq deyib ki, bu, həmçinin AP nəzdində dostluq qrupunun yaradılmasının nə qədər doğru və vacib addım olduğunu bir daha göstərir. Bu bəyanat gələcəkdə qəbul ediləcək daha mühüm sənədlər üçün bir əsas olacaq və bunun üçün daha çox çalışmaq, beynəlxalq parlament qurumları ilə daha sıx əlaqələr qurmaq vacibdir. Deputat deyib: "Hazırda dünyada parlament diplomatiyasının rolu və əhəmiyyəti artır. Bunu nəzərə alaraq Milli Məclisin müvafiq təşkilatlarla işləyən nümayəndə heyətləri, o cümlədən Avropa Parlamenti ilə münasibətdə olan bizim nümayəndə heyətimiz bütün mümkün vasitələrlə əlaqələrin daha intensiv xarakter almasına, əməkdaşlığın genişləndirilməsinə çalışır. Düşünürəm ki, bu məqsədyönlü iş tezliklə daha çox və daha ciddi nəticələr verəcək".

Xocalı faciəsi ilə bağlı bəyanat, ümumilikdə, Avropa Parlamentinin 13 ölkəni (28 ölkədən) və 6 siyasi qrupu (8 qrupdan) təmsil edən 22 üzvü - Andrey Mamikins (Latviya), Norika Nikolai (Rumıniya), İveta Grigule-Peterse (Latviya), Ramona Manesku (Rumıniya), Xavier Nart (İspaniya), Tomaş Zdeçovski (Çexiya), Hannu Takkula (Finlandiya), İvo Vayql (Sloveniya), Angelo Çiokka (İtaliya), Lorenzo Fontana (İtaliya), Mark Tarabella (Belçika), Kristian Buşoi (Rumıniya), Alberto Çirio (İtaliya), Boris Zala (Slovakiya), Aldo Patriçiello (İtaliya), Yana Toon (Estoniya), İlhan Küçük (Bolqarıstan), Franz Obermayr (Avstriya), Valentinas Mazuronis (Litva), Heydi Hautala (Finlandiya), Angel Cambazski (Bolqarıstan) və Salvo Poglieze (İtaliya) tərəfindən, o cümlədən qurumun vitse-prezidenti tərəfindən imzalanıb.

# Novruzun ilk müjdəçisi

*Bu gün xalqımız ilk çərşənbəni - "Su çərşənbəsi"ni qeyd edir*



***Novruz bayramı xalqımızın milli-mənəvi dəyərlərini özündə yaşadan bayramdır. Novruz bayramı - halallıq, təmizlik və saflıq bayramıdır. Novruza bir ay qalmış insanlar dörd çərşənbə axşamını qeyd edirlər.***

Bu çərşənbələrin hər biri insanların yaşaması, həyatının varlığı üçün vacib olan ünsürdən birinə - su, od, yel və torpağa həsr olunur. Bu da Novruzun dünyanın ən qədim və ən müdrik bayramlarından biri olduğunu göstərir. Bu çərşənbələr insanın 4 ünsürdən yaradılması ilə bağlı dini-mifik görüşləri simvollaşdırır və ritual-mifoloji semantikasında yaradılış prosesini dinamik olaraq işarələyir. Belə ki, "Su çərşənbəsi" həyatdır, aydınlıqdır və paklıqdır. Sübh tezdən bulaqdan ilkin su gətirmək, axar su üstundən tullanmaq və s. sağlamlıq, xoşbəxtlik və sevinc rəmzidir. "Yel çərşənbəsi"ndə hava tez-tez dəyişir, eyni gündə külək, yel, gilavar və meh əsir. Su, Torpaq, Od - təbiətdə nə varsa hamısı, hərəkətə gəlir. Bütün bunlar baharın gəlişinə işarədir. Sonuncu çərşənbə isə "Torpaq çərşənbəsi"dir ki, buna axır çərşənbə deyilir. Həmin gün, nəhayət, torpaq oyanır. Bu zaman insanlar torpağa daha çox can atır. Çünki insanın ruzisi torpaqdan çıxır, o, torpaqdan yaranıb və son məqamda da torpağa qarışır.

Bu gün ilk çərşənbə "Su çərşənbəsi"dir. Novruz bayramının ilk çərşənbəsi. Bu çərşənbəyə "Əzəl çərşənbə", "Sular Novruzu" da deyirlər. Su çərşənbəsində su və su mənbələri təzələnir, arxlar qaydaya salınır, su hövzələrində abadlıq işləri görülür, su ilə bağlı müxtəlif şənliklər keçirirlər. Su çərşənbəsi suya tapınma inamı ilə bağlıdır. Hələ gün doğmamışdan hamı su üstünə gedir, əl-üzünü yuyur, bir-birinin üzərinə su çiləyir, su üstündən atlanır və yaralıların yarasına su çiləyirlər. Xalqın inamına görə Su çərşənbəsi günü "təzə su"dan keçənlər, azarını-bezarını ona verənlər il boyu xəstəlikdən uzaq olarlar. Həmin gün su üstündə müxtəlif mərasimlər keçirilir, qədim türklərdə su tanrıları sayılan Aban və Yadanın şərəfinə nəğmələr oxunur. Su çərşənbəsi ilə əlaqədar çoxlu sayda inanclar, fallar, türkəçarələr, bayatılar, əfsanələr və rəvayətlər var. Məsələn, inanclarda deyilir: süfrəyə su dağılması aydınlıqdır, su içən adamı qəfil vurmazlar, su içən adamı ilan çalmaz, lal axan sudan keçərkən, "suyum irəlilə" deyərlər. Bir çox atalar sözündə də suyun müqəddəsliyi əks olunur: "Su olan yerdə dirilik olar", "Su ehsandır", "Su murdarlıq götürməz", "Suyu çirkləndirənin nəşini yumağa su tapılmaz".

Su çərşənbəsində, əslində, suyun canına istilik gəlir, su qızmağa, donu-şaxtası açılmağa başlayır ki, bununla da soyuqdan donmuş, ölmüş su qızır, başqa sözlə, "ölmüş su" yenidən dirilik tapır. "Qurani-Kərim"də buyurulan "hər bir canlını sudan yaratdıq" kəlamı da suyun yaradılışın əsasını təşkil etdiyini göstərir.

Folklorşünas alimlərin qənaətinə görə, xalqımız tarixən Su çərşənbəsinə çox böyük önəm verib. Dilimizdəki sabitləşmiş olan "abi-həyat" - "dirilik suyu" el ifadəsi də xalq təfəkküründə suyun, məhz həyatla, yaşayışla sıx bağlı olmasını əks etdirir. Bu, istər mifoloji, istər dini, istərsə də müasir gerçəklik baxımından, tam reallığa söykənən həqiqətdir. Mifdə, mərasimdə və məişətdə suyun əvəzsiz rolu və müstəsna əhəmiyyəti var.

Respublikamızın bütün bölgələrində Su çərşənbəsini bayram etmək üçün qız-gəlinlər, yeniyetmələr, uşaqlar sübh çağı bayram libası geyinib çay sahilinə düşüb oradan su gətirərək bir-birilərinə bayram əhval-ruhiyyəsi ilə "su qədər ömrün olsun", "sudan yarıyasan" və s. kimi alqışlarla Su çərşənbələrini təbrik edirlər. Bir məqamı da nəzərdən qaçırmayaq ki, rəngli bardaqlarla və əlvan rəngli vedrələrlə su daşınması təsadüfi deyil. Su çərşənbəsinin şərəfinə su qablarının da bəzək-düzəkli, naxışlı olması təbiidir, çünki mifik düşüncəyə görə, hər bir şeyin sahibi və hamisi olduğu kimi, suyun da yiyəsi və hami ruhu var. Su çərşənbəsi bayramında su yiyəsini razı salmaq, su hamisinə xoş gəlmək üçün suyu gözəgəlimli, təzə naxışlı və bəzəkli qablarda daşıyırlar. "Su gözəllər yüküdür" deyiblər. Gözəllər yükü olan, gözəl qız-gəlinlər daşıyan suların qabları da gözəllərimizin gözəlliklərinə uyğun qablar da olmalıdır. Su çərşənbəsi günündə təzə bayram paltarlarını əyinlərinə geyinmiş qız-gəlinlərin çiyinlərinə aldıqları su qabları cazibədar, bərli-bəzəkli olmalı və bayram əhval-ruhiyyəsini tamamlamalıdır.

Su çərşənbəsində insan özünü təbiətin ayrılmaz parçası hesab etməklə, su ilə ilgili əfsun, sehr, oyun, icra ayinləri, mərasimi və s. yerinə yetirir - su üstündən adlamaqla, evinə zəmzəm suyu gətirməklə və s. şəklində Su çərşənbəsini bayram edir.

Su çərşənbəniz mübarək olsun!

***Z.BAYRAMOVA***

# Ağcabədidə "Xocalı bizik" adlı anım tədbiri keçirilib

***YAP Ağcabədi rayon təşkilatında Yeni Azərbaycan Partiyası Ağcabədi rayon təşkilatı qadınlar şurasının və Gənclər Təhsil Mərkəzi Qarabağ Regional ofisinin birgə təşkilatçılığı ilə Xocalı soyqırımının 26-cı ildönümünə həsr edilmiş "Xocalı bizik" adlı anım tədbiri keçirilib.***





Xocalı şəhidlərinin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edildikdən sonra, tədbiri giriş sözü ilə açan YAP Ağcabədi rayon təşkilatı qadınlar şurasının sədri Radə Telmanqızı bildirib ki, tarixdə elə qanlı hadisələr var ki, təkcə bir xalqın taleyi ilə bağlı olmayıb, bütün bəşəriyyətə qarşı ağır cinayət hesab edilir: "Erməni şovinist-millətçi qüvvələrin azərbaycanlılara qarşı həyata keçirdikləri Xocalı soyqırımı, məhz insanlığa qarşı törədilmiş bu cür amansız cinayətlər sırasındadır. Bu gün Xocalı həqiqətlərinin dünyaya çatdırılması, beynəlxalq aləmdə yayılması, eləcə də, bu soyqırımına obyektiv qiymət verilməsi istiqamətində Azərbaycan dövləti bütün zəruri addımları atır. Hazırda Xocalı soyqırımının tanınması Azərbaycanın xarici siyasətinin əsas istiqamətlərindən biri kimi müəyyənləşdirilib. Buna görə də, hər bir Azərbaycan vətəndaşı bu istiqamətdə öz üzərinə düşən vəzifəni dərk etməli və layiqincə yerinə yetirməlidir".

Tədbirdə YAP Ağcabədi rayon təşkilatının aparat rəhbəri Nazim Bünyadov və məsləhətçi Mehman Novruzov, N saylı hərbi hissənin əsgərləri çıxış edərək, Azərbaycan xalqının tarix boyu erməni millətçilərinin davamlı olaraq etnik təmizləmə, soyqırımı siyasətinə məruz qalmasından, öz tarixi topraqlarından qovulmasından, qaçqın və məcburi köçkünə çevrilməsindən və bütün bunların ermənilər tərəfindən kütləvi qırğınlarla müşayiət olunmasından danışıblar. Xocalı soyqırımının Azərbaycanın unudulmaz, dəhşətli və qanlı günlərindən olduğunu söyləyərək, soyqırımı aktının bir sıra dünya ölkələrində anıldığı bildirilib.

Tədbirdə GTM Qarabağ ofisi nəzdində fəaliyyət göstərən İnklüziv Təhsil və Uşaq İnkişaf Mərkəzinin və Məmməd Aranlı adına Ağcabədi şəhər 11 saylı tam orta məktəbin şagirdlərinin birgə hazırladıqları ədəbi-bədii kompozisiya nümayiş etdirilib.

***Z.ƏLƏDDİNQIZI***

# Ağdamda "700 min ağac əkək" kampaniyası uğurla davam edir



***Yeni Azərbaycan Partiyasının yaranmasının 25 illik yubileyi ilə əlaqədar "700 min ağac əkək" kampaniyası çərçivəsində, YAP Ağdam rayon təşkilatı tərəfindən ağacəkmə aksiyası davam etdirilir.***

Aksiyada YAP Ağdam rayon təşkilatının fəalları və ərazi  ilk partiya təşkilat sədrləri iştirak ediblər. Rayonun Bayraq meydanı ərazisində və Soltanbud meşəsində 920 ədəd ağac əkilmişdir. Ümumilikdə, aksiya müddətində 6500 ədəd ağacın əkilməsi nəzərdə tutulmuşdur. Bu günə  qədər rayonda 5620 ədəd ağac əkilib.

***ZÜMRÜD***

# Elman Məmmədov: Gün gələcək, Xocalı qətliamını törədən canilər qanlı cinayətlərə görə cavab verəcəklər

***"Xocalı soyqırımının törədilməsi ilə ermənilər bəşəriyyətə qarşı cinayət törədiblər". Bu fikri yap.org.az saytına Milli Məclisin deputatı Elman Məmmədov deyib.***

E.Məmmədov bildirib ki, ötən əsrdə Xocalı üç dəfə - 1905-1906, 1918-1920 və 1992-ci ilin fevralında ermənilər tərəfindən yandırılıb. Onun sözlərinə görə, Xocalı strateji əhəmiyyətli bir ərazi idi.



"Ermənilər tərəfindən Xocalının işğalının çox ciddi səbəbləri var idi. Əvvəla, Xocalının yerləşdiyi coğrafi mövqe ermənilərin strateji maraqlarının həyata keçirilməsində onlara çox gərəkli idi. Bakıdan qərb istiqamətində gedəndə Xocalıya qədər Ağdamdır. Ağdamdan şose yolu ilə Xocalıya 16 kilometrlik məsafədir. Xocalı düşmən kəndləri arxasında yerləşirdi. Düşmən Ağdama hücum etmək istəyərkən arxada olan Xocalı özünümüdafiə dəstələrindən qorxurdu. Xocalı  Bakı-Ağdam-Laçın-Şuşa magistral yolunun üstündə idi. Dağlıq Qarabağda yeganə hava limanı da, məhz Xocalıda yerləşirdi. Üstəlik, Bakıdan Xankəndiyə gedən dəmir yolu da Xocalıdan keçirdi. Biz Xocalıda elə bir müdafiə sistemi yaratmışdıq ki, istədiyimiz vaxt bu yolları bağlayırdıq. Xocalı bu strateji mövqeyinə görə düşmənin əsas hədəflərindən birinə çevrilmişdi. Ona görə də, bu şəhəri işğal etmək ermənilərin başlıca məqsədlərindən biri idi.

Ermənistanda son 25-30 ildə hakimiyyət başında olmuş, hakimiyyətdə yüksək vəzifələrdə əyləşmiş və bu gün də ölkəyə rəhbərlik edən şəxslərin hər birinin Xocalı soyqırımında, Azərbaycana qarşı baş vermiş hərbi cinayətlərdə birbaşa əli var. Sarkisyanların, koçaryanların, ohanyanların, ter-petrosyanların və digərlərinin əli Azərbaycan xalqının, xocalılıların qanına bulaşıb. Onlar cinayətkar, hərbi canidirlər. Təəssüf ki, himayədarlarının köməyilə onlar hələ də öz layiqli cəzalarını almayıblar, Azərbaycan xalqına qarşı etdikləri cinayətlərin ədalət mühakiməsindən yayına biliblər. Bu da bizə qarşı dünyada hökm sürən ikili standartların tərkib hissəsidir. Gün gələcək, həmin canilər Azərbaycan xalqına, o cümlədən, xocalılılara qarşı etdikləri qanlı cinayətlərə, soyqırımlarına görə cavab verəcəklər"- deyə, E.Məmmədov vurğulayıb.

# Arif Hacılının Müsavatda ağalıq iddiası artmaqdadır

***Müsavat partiyasının sabiq başqanı, "Milli-Strateji Düşüncə Mərkəzi"nin sədri İsa Qəmbərin səhhəti yenidən pisləşib və o, hazırda Mərkəzi Klinik Xəstəxanadadır. Xəstəxananın həkimləri İ.Qəmbərin bir neçə gün xəstəxanada qalması və ürək-damar sisteminin gücləndirilməsi ilə bağlı tibbi prosedurlardan keçməsini tövsiyə ediblər.***

Qısa müddət ərzində, "Milli-Strateji Düşüncə Mərkəzi" sədrinin bir neçə dəfə tibb müəssisəsinə müraciət etməsi səhhətində olan ciddi narahatlıqdan xəbər verir. Hər bir insanın səhhətində narahatlığın ola bilər və eks-başqan, bu mənada, istisna deyil. Müalicəyə ehtiyacı olan hər kəsə şəfa nəsib olsun və Hippokrat andı içən səhiyyə işçilərinin məqsədi də, elə budur ki, insanlara sağlamlıq bəxş etsinlər.

## Eks-başqanın səhhətinin pozulması Arif Hacılıya özünü lider kimi göstərməyə əvəzedilməz şans verir

Müsavatçıların İ.Qəmbərin xəstəxanaya müayinəsini davam etdirmək üçün getdiyini bildirməsi, ictimaiyyətin eks-başqanın səhhətində olan problemlər barədə düşünməsindən ehtiyat etdiklərini təsdiq edir. Maraqlıdır, ehtiyatlanmaq nəyə lazımdır? İnsanların səhhətində olan dəyişikliklər, ələlxüsus, yaşlı insanların səhhətində bəzi problemlərin ola bilməsi gözləniləndir və kiminsə müalicə məqsədi ilə tibb müəssisələrinə müraciət etməsi başa düşüləndir. Görünür, yeni başqan Arif Hacılı olsa da, müsavatçılar eks-başqanı hələ də özlərinə rəhbər, ümid yeri hesab edirlər. Bu, həm də deməkdir ki, hazırda başqan postunda olan A.Hacılını heç kim başqan kimi görmür və onun fəaliyyətinin qondarma olması, hətta partiyadaşları tərəfindən də qəbul olunur.

Bəllidir ki, Müsavat partiyası çoxdandır xaotik şəkildə fəaliyyət göstərir. İdarəsizlik, ikitirəlik, parçalanmalar, fikir ayrılıqları, hətta rəhbərliyə tabesizlik belə müşahidə edilməkdədir. Müsavat partiyasından azçox xəbərdar olanlar bilir ki, başqan olsa belə, A.Hacılının sözü hesaba alınmır. Bu pərakəndəliyə məhəl qoyan da yoxdur. Əksinə, partiyada müavinlər belə öz komandasını yaradıb və tərəfdaşları başqanın deyil, onların sözünü eşidir. İllərlə Tofiq Yaqublu də beləcə A.Hacılının rəhbərliyinə, başqanlığına tabesizlik nümayiş etdirərək, öz bildiyində idi. Son hadisələr,



onun başqan müavinlyindən azad edilməsi onu deməyə əsas verir ki, sadaladıqlarımızı Hacılı özü də yaxşı bilirdi və vəzifəsindən azad etməklə, başqan, əslində, Yaqublunu cəzalandırdı. Bu cəzalandırma həm də digərlərinə bir mesaj idi və başqanın öz postunu mühafizə etməsini isbatlayır.

Belə ki, İ.Qəmbərin səhhətinin pozulması, dəfələrlə tibbi müdaxiləyə ehtiyac duyması A.Hacılıya özünü meydanda yeganə lider kimi göstərməyə əvəzedilməz şans verir. "Milli-Strateji Düşüncə Mərkəzi" sədrinin Müsavat partiyası başqanı olmasa da, hələ də müsavatçıların ümid yeri olması, hazırkı başqanı və onun rəhbərliyini, hakimiyyətini kölgə altına alması inkar edilə bilməz. Müsavatçılar hələ də, sanki İ.Qəmbəri özləri üçün başqan hesab edir və Hacılının qondarma başqan olduğunu zənn edirlər. Bu baxımdan, eks-başqanın səhhətində olan narahatlıqlar səbəbindən fəaliyyətsizliyi bir növ A.Hacılının mövqeyini möhkəmləndirməsinə xidmət edir. Başqanın öz mövqeyini möhkəmləndirmək niyyəti isə, hər addımda hiss olunur. İ.Qəmbərin hələ birinci dəfə tibb müəssisəsinə səhhəti ilə əlaqədar müraciət etdiyindən az sonra Hacılı, məhz T.Yaqublunun müavinlikdən azad edilməsi ilə əlaqədar qərar qəbul etdi və bu həm də özünü təsdiq kimi də qiymətləndirilə bilər.

## İsa Qəmbərin meydandan uzaqlaşması başqanın əl-qolunu daha da açmış olur

Məsələ burasındadır ki, eks-başqanın ikinci dəfə xəstəxanaya yerləşdirilməsi, müayinə və müalicəsi, çox güman ki, Müsavatda daha bir vəzifədən azad olunma ilə nəticələnə bilər. Yəni Hacılıya tabe olmayan hələ çox kadrı var və öz başqanlığını sübut etmək üçün, ələlxüsus, analoji olaraq, belə bir şəraitdə onların da cəzalanacağı gözləniləndir. Daha doğrusu, İ.Qəmbərin meydandan uzaqlaşması A.Hacılının əl-qolunu daha da açmış olur və imkanlarını genişləndirir. Bu səbəbdən də, istənilən qərarın qəbul olunması, icrası asanlaşır və rəqiblərin səhnədən uzaqlaşdırılması kimi qərarları, görünür, Hacılı labüd hesab edir.

İ.Qəmbərin səhhətinin pozulması, tibbi müdaxilələr və bir sözlə, onun siyasi səhnədən uzaqlaşması nəticəsində, hakimiyyət A.Hacılının əlində cəmləşib. Cari ilin may ayında keçirilməsi nəzərdə tutulan qurultaylarında yenidən başqanlığını qoruyub- saxlaması üçün bu şansı Hacılı özünə əvəzolunmaz hesab edir. Bu baxımdan, yəqin ki, Qubad İbadoğlu probleminə də başqan, bu arada aydınlıq gətirəcək və may ayına qədər bu problemin də həlli reallaşdırılacaq. Çünki hazırda başqanın əl-ayağına dolaşan ən çox, məhz Q.İbadoğludur. Yəni mayda keçiriləcək qurultaya və bir daha başqan olmasının təsdiqinə qədər bütün maneələri təmizləyəcəyinə şübhə yoxdur. Çünki vəzifəsinin öhdəsindən gələ bilməyəcəyini yaxşı bilən A.Hacılının nə prezidentlik, nə də namizədlik iddiası var və onun marağı yalnız öz postunu qorumaqdır. Bu mənada, qarşısına çıxa biləcək kimsənin olmasını arzulamır.

Belə bir şəraitdə, yeni İ.Qəmbərin siyasi səhnədə olmadığı bir durumda, A.Hacılının, təbii ki, Müsavatda ağalıq iddiası artmaqdadır və tezliklə bu iddiası istefalarla, vəzifədən azad olunma halları ilə özünü büruzə verəcək. Hətta səhhətində problem yaranan İ.Qəmbərin "Milli-Strateji Düşüncə Mərkəzi"nə rəhbərlik etmək kimi bir iddiada olacağı da təkzib edilə bilməz. Çünki müxalifət düşərgəsində heç bir quruma dişi batmadığını, məhz İ.Qəmbərin xəstə də olsa, kölgəsində hərlənməkdən başqa çarəsi olmadığını, heç bir gücə sahib olmadığını başqanın özü də yaxşı bilir. Bu baxımdan, İsa Qəmbərə məxsus nə varsa hamısına bir-bir göz dikən Arif Hacılının MSDM-ə də, onun sədrliyinə də göz dikməyəcəyinə kimsə zəmanət verə bilməz.

Göründüyü kimi, ictimai dəstəyi olmayan radikallar, əslində, nə prezident kürsüsünə iddialıdır nə də namizədlik arzusundadır ki, buna haqqı və imkanı olmadığını hər biri ayrı-ayrılıqda bilir. Hər biri, öz növbəsində, müxalifət düşərgəsində tutduğu postla qənaətlənir və əslində, yalnız elə bu postu qorumağa maraqlıdırlar. Bu istiqamətdə hər addıma, hətta bir-birini didibparçalamağa belə hazırdırlar. Bu didişmədə onlar üçün fərqi yoxdur, bu, hansı partiya nümayəndəsi, hansı qurum rəhbəri, yaxud partiyadaşıdır. Hakimiyyətdən əli üzülənlər üçün əsas odur ki, müxalifətdə liderliyini qoruya bilsinlər. Əks halda, gündəmdən düşmək, yaddaşlardan belə tamamilə silinmək qorxusu danılmazdır.

***İnam HACIYEV***

# Bakıda 900-dən çox kitab oğurlamaqda şübhəli bilinən şəxs saxlanılıb




Paytaxt sakini Solmaz Amanova Nərimanov Rayon Polis İdarəsinin 16-cı polis bölməsinə şikayət ərizəsi ilə müraciət edərək Atatürk prospekti-9 ünvanında yerləşən və ona məxsus anbardan oğurluq olduğunu bildirib.

Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, hadisə yerinə baxış zamanı Solmaz Amanovanın uşaq ədəbiyyatı silsiləsinə aid müəllifi olduğu 900-dən çox kitabın və məişət əşyalarının oğurlandığı müəyyənləşib. Oğurluq hadisəsini törətməkdə şübhəli bilinən Kürdəmir rayon sakini, əvvəllər məhkum olunmuş Samir Salmanov Nərimanov Rayon Polis İdarəsi 16-cı polis bölməsi əməkdaşlarının keçirdikləri təxirəsalınmaz əməliyyat-axtarış tədbirləri nəticəsində saxlanılıb. Saxlanılan şəxs ifadəsində qeyd edilən anbardan oğurluq etdiyini etiraf edib. Bildirib ki, əldə etdiyi kitabları şəhərin müxtəlif istiqamətlərindəki kitab mağazalarına satıb. Araşdırma zamanı, həmçinin S.Salmanovun Cinayət Məcəlləsinin oğurluq maddəsi ilə axtarışda olduğu da müəyyənləşib. Faktla bağlı Cinayət Məcəlləsinin müvafiq maddəsi ilə cinayət işi başlanılıb, araşdırmalar və zəruri istintaq hərəkətləri davam etdirilir.



# Hər qaynayan qazandan Leyla Yunus buğu qalxır

**AFƏT**

***Ataların gözəl bir misalı var: "Abırlı abrından qorxar, abırsız nədən qorxar?!" Bu misalın AXCP sədri Əli Kərimli və "Sülh və Demokratiya İnstitutu"nun direktoru Leyla Yunusa aid olduğunu desək, səhv etmərik. Ən azı, ona görə ki, bu abırsızlar milli və dövlətçilik maraqlarına qarşı çıxmağı özlərinin şərəf məsələsi hesab edirlər. Abırlı abrını gözlədikcə, bunların abırsızlıqları baş alıb gedir. Müxalif düşərgədə özlərini vacib fiqur hesab edən bu ünsürlər dəfələrlə sübut ediblər ki, milli və dövlət maraqlarını satmağa hər zaman hazır olublar və yenə də hazırdırlar.***

Onlar açıq-açığına Azərbaycanın dövlət mənafeyinə qarşı mübarizə aparırlar. Götürək elə L.Yunusu. Bu "xanımın" adı, demək olar ki, bütün qara işlərdə hallanır. Hansı qaynayan qapağı qaldırsan, ordan L.Yunusun buğu qalxır. İctimai-siyasi həyatda nə qalmaqal, nə ziddiyyət, nə qarşıdurma, nə ikitirəlik varsa, bu ünsür mütləq şəkildə ordadır. Bəxt-taleyinə qara yel əssə və işləri çətinə düşsə, anındaca başbiləni Ə.Kərimli imdadına çatacaq. Bu ünsürlərin xarici fondlarla qurduqları işbirlikləri çox uzun illərə dayanır. Respublikamızda bəzi müxalif siyasi və ictimai təşkilatlar belə bir ənənənin əsasını qoyublar. Həmin məkrli fəaliyyət hələ də davam etdirilir. Məsələ burasındadır ki, onların bu cür siyasət yürütmələri ziyandan və problemdən savayı bir şey deyil. Tutaq ki, Amerikanın, Almaniyanın və ya Fransanın hər hansı bir dövlətin hakimiyyətinə müxalif olan qüvvəyə nə marağı ola bilər ki, təmənnasız maliyyə yardımı göstərsin? Əlbəttə ki, bu, qeyri-mümkündür. AXCP kimi dağıdıcı, üzdəniraq və satqın bir qurum xarici qüvvələrin maraqlarının təmin olunmasında əsas rol oynayır. Hələ, üstəlik, tək bu fəaliyyətlə kifayətlənmir, hətta tabeliyində olan sosial şəbəkə istifadəçilərinə və saytlara da göstərişlər verir və onları yönəldir. Bunlara başa salan lazımdır ki, dövlət maraqları satılmaz. Yenə də atalar demiş: "Tamarzıdan al, dadanmışa ver". İndi bunların hansından alıb, hansına verəsən? Eyni xislətli, eyni düşüncəli, eyni yolun yolçularıdır. Amma orasını da deyək ki, L.Yunus və Ə.Kərimli mənəviyyatsız adam olsalar da, "satış" məqamı yetişəndə, o qədər də ağılsız hərəkət etmirlər, öz maraqlarını ön planda tuturlar. Oturduqları villalar, sürdükləri maşınlar hansı pullarla alınıb? Ə.Kərimlinin övladları hansı pullarla Böyük Britaniyadakı nüfuzlu və bahalı ali məktəblərdə təhsil alırlar? Həmin villalar, külli miqdarda maliyyə vəsaitləri də, heç şübhəsiz ki, məlum "satış"ların nəticəsində əldə olunur. L.Yunus isə maliyyə vəsaitlərini özünə canı qədər yaxın olan doğmalarından, öz ermənipərəstlərindən alır.

# Fikir, söz və məlumat azadlığının, plüralizmin inkişaf etdirilməsi

***Güclü və qüdrətli Azərbaycan dövləti beynəlxalq aləmin aparıcı subyektlərindən birinə çevrilməklə yanaşı, təkcə sosial-iqtisadi sahədə deyil, eləcə də cəmiyyətin daha da demokratikləşdirilməsi istiqamətində kifayət qədər uğurlar qazanıb. Azərbaycan dünya miqyasında mövcud olan mütərəqqi, humanist məzmunlu fəaliyyət birlikləri ilə yanaşı, bu gün özündə bəşəri dəyərləri ehtiva edən bütün beynəlxalq müqavilə, pakt və konvensiyalara qoşulub. Belə müqavilələrdən biri də Vindhuk müqaviləsidir. Bu, insan hüquq və azadlıqlarının təmin edilməsinə töhfə vermək məqsədilə formalaşdırılmış sənədlərdən biridir. Xatırladaq ki, həmin müqavilə azad və müstəqil informasiya vasitələrinə yardımçı olmaq məqsədi ilə bütün dünya dövlətlərinə mətbuat azadlığının və demokratikliyinin təmin edilməsinə yardımçı olmağa çağıran sənəddir. Hər bir insan əqidə azadlığı və onu sərbəst ifadə etmək hüququna malikdir. Bu gün, tam qətiyyətlə deyə bilərik ki, Azərbaycan Respublikası, nəinki Avropada, hətta bütün dünyada əsas insan hüquq və azadlıqlarının, həm də söz və mətbuat azadlığının ən yüksək səviyyədə qorunduğu ölkələrdən biridir. Müstəqil Azərbaycan dövləti ölkədə insan hüquqlarının müdafiəsi, söz və mətbuat azadlığı kimi məsələlərə xüsusi yer verir.***



## Azad fikir, düşüncə və söz azadlığı inkişafın yüksək pilləsinə çatıb

Azərbaycan dövləti hər zaman azad fikir və söz azadlığının inkişafı üçün genişmiqyaslı işlər görüb. 1993-cü ildə Ümummilli Lider Heydər Əliyevin ölkədə hakimiyyətə qayıdışından sonra yeni tipli medianın formalaşması və möhkəmlənməsi üçün dəfələrlə ciddi tədbirlər həyata keçirilib, "Kütləvi informasiya vasitələri haqqında" Qanunun qəbulundan sonra ölkə mətbuatının inkişafında yeni dövr başlandı və bu mediaya yeni ruh, nəfəs gətirdi. Bundan sonra da azad mediaya sahib olan Azərbaycan cəmiyyəti davamlı inkişaf edəcək və bu, onun iqtisadi və siyasi həyatına da öz təsirini göstərəcək. Çünki belə bir cəmiyyət artıq var və bu həqiqəti çağdaş dünyada hər kəs qəbul edir. Azad fikir və azad düşüncə mətbuatın inkişafına təkan verib və xalqımızın arzularının reallaşmasına, müstəqillik amalının güclənməsinə, mənəvi dəyərlərinin tərəqqisinə, milli şüurun və mədəniyyətin formalaşmasına öz töhfələrini verə bilib.

Hazırda azad fikir və düşüncə, söz azadlığı inkişafın yüksək pilləsinə çatıb. Çünki əvvəlki dövrlərə nəzər saldıqda hakimiyyət orqanları, siyasi dairələr milli fikrin, söz azadlığının inkişafı və mətbuatın azadlığı naminə heç bir iş görmürdülər. Jurnalistin döyüldüyü, televiziya verilişinin canlı efirinə müdaxilə edildiyi bir dövrdə hansı müstəqil və azad mətbuatdan söhbət gedə bilərdi?! O dövr demokratik dəyərlərin bərqərar olması və inkişafı mümkün deyildi. Lakin Ulu Öndərin 1993-cü ildə xalqın təkidi, tələbi ilə hakimiyyətə qayıdışı mətbuatımızın inkişaf tarixində də yeni bir mərhələnin əsasını qoyub və azad fikrin düşüncənin inkişafı yüksək səviyyəyə çatıb.

## Ölkədə azad mətbuatın mövcudluğunun qarşısını heç bir qüvvə ala bilməz

"İki sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadə deyir ki, bütün dövlətlər kimi, Azərbaycan da demokratiyanın təməl prinsiplərindən hesab olunan azad fikir və düşüncənin bu kimi dəyərlərin tətbiqində, inkişaf etdirilməsində maraqlıdır: "Bu da bir faktdır ki, söz və fikir azadlığı, informasiya əldə etmək haqqının tanınması azad mətbuatın mövcudluğundan keçir. Heç şübhəsiz ki, sözügedən azadlıqların təmin olunması üçün təkmil qanunvericilik bazası Azərbaycanda var və fikir, mətbuat azadlığı kifayət qədər qanunlarla tam şəkildə təsbit olunur. Hər bir şəxs bu sahə ilə bağlı öz fəaliyyətini qura, fikrini ifadə edə bilər. Demokratiyanın əsas göstəricilərindən sayılan söz və məlumat azadlığı prinsipi dövlətlərin, xalqların hərtərəfli inkişafında, cəmiyyətlərin formalaşmasında müstəsna rol oynayır. İnsan hüquq və azadlıqlarının ayrılmaz hissəsi olan söz, fikir və ifadə azadlığı və bunların təminatı hər bir ölkədə demokratiyanın nə dərəcədə inkişaf etdiyinin və demokratik təsisatların uğurlu işləməsinin əsasını təşkil edir. Azərbaycanda jurnalist peşəkarlığının artırılması, söz azadlığının bərqərar olması və onun əsas daşıyıcısı olan müstəqil mətbuatın yaradılması Ulu Öndərimiz Heydər Əliyevin və onun davamçısı Prezident İlham Əliyevin adı, siyasi və dövlətçilik fəaliyyəti ilə sıx bağlıdır. Dahi şəxsiyyətlərin kütləvi informasiya vasitələrinin inkişafına göstərdiyi böyük diqqət və qayğısı nəticəsində qısa zamanda bu sahədə fəaliyyəti tənzimləyən zəngin qanunvericilik bazası yaradılıb, mətbuat orqanlarının maddi-texniki təminatı, iqtisadi müstəqilliyi gücləndirilib, mətbuat-dövlət münasibətlərində mütərəqqi ənənələrin əsası qoyulub və artıq Azərbaycan bununla inteqrasiya edib. Bunun nəticəsidir ki, müstəqil Azərbaycanın adı dünyanın inkişaf etmiş ölkələri ilə bir sırada çəkilir. Bu gün ölkəmizdə insanlar müstəqil düşüncələrini ifadə edə bilir və azad fəaliyyəti, inkişafı üçün zəruri tədbirlər görülür. Azərbaycanda fikir, söz və məlumat azadlığının, plüralizmin inkişaf etdirilməsi Prezident İlham Əliyevin daim diqqətindədir. Dövlət başçısı fəaliyyətə başladığı ilk gündən mətbuatın inkişafının dövlət siyasətinin başlıca prioritetləri kimi elan etdi, fəaliyyətində bu nüansa xüsusi diqqət ayırdı və kütləvi informasiya vasitələrinə maddi yardımlar edildi. Bütün bu reallıqlar, bir daha sübut edir ki, ölkədə azad mətbuat mövcuddur və onun mövcudluğunun qarşısını heç bir qüvvə ala bilməz. Ölkə Prezidenti İlham Əliyevin Fərmanı ilə Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin inkişafına Dövlət Dəstəyi Fondunun yaradılması da mətbuatın inkişafına göstərilən diqqət və qayğının bariz nümunəsidir. Jurnalistlərin mənzil şəraitinin yaxşılaşdırılması, fəxri adlarla təltif olunmaları onlara verilən dəyərin bariz nümunəsidir.

## Cəmiyyətin yükünü də, inkişafını da media öz üstünə götürməlidir

"Yeni Azərbaycan" qəzetinin baş redaktoru, millət vəkili Hikmət Babaoğlu hesab edir ki, Azərbaycan mətbuatı yarandığı gündən bu günə qədər mövcud olduğu dövrdə özünün ən azad və dövlət himayəsi ilə əhatə olunduğu bir mərhələni yaşayır: "Hələ 1998-ci ildə senzuranın ləğv edilməsi və bundan sonra mətbuatla dövlət münasibətini koordinasiya edən Mətbuat və İnformasiya Nazirliyinin ləğv edilməsi Azərbaycan mətbuatının inkişafını təmin etməklə bərabər, onun həm də sözün əsl mənasında, azadlığını təmin etmiş oldu. Söz və fikir istehsalının böyük bir hissəsi hər bir cəmiyyətdə mətbuat üzərindən realizə olunan hadisədir və bu fikir azadlığı, əslində, cəmiyyətin inkişafını təmin edən təməl prinsiplərdən biri hesab olunur. Bu isə, şübhəsiz ki, inkişafı təmin etməklə bərabər həm də fərdlərin, yazarların özünü sərbəst ifadəsi üçün şərtlər yaradır. Bax, belə olduqda, cəmiyyət inkişaf edir. Azərbaycanda medianın inkişafını, mətbuat azadlığının təmin olunmasını keyfiyyətcə yeni mərhələyə daşıyan başqa bir hadisə var. Bu, Azərbaycan Prezidentinin mediaya göstərdiyi diqqət və qayğıdır. Biz bilirik ki, media hər bir cəmiyyətin lakomatik intellektual institutdur və hazırkı mürəkkəb qlobal kontekstində media həm də milli təhlükəsizliyi, informasiya təhlükəsizliyini təmin edən vasitələrdən biridir. Medianın bu çox funksionallığını, çoxşaxəliyini və hazırkı mərhələdə institut kimi zəruri fəaliyyətini yüksək səviyyədə qiymətləndirən Prezident İlham Əliyev daim Azərbaycan mediasına qayğı göstərir. Jurnalistlərin peşə nüfuzu artırılır, fəxri adların verilir, onların məişət problemlərinin həlli ilə bağlı çox ciddi addımlar atılır. Bütün bunlar jurnalist peşəsini gənclər üçün cazibədar edir. Yeni intellektual nəslin mediaya axınını təmin edir və beləliklə, Azərbaycan mediası keyfiyyətcə yeni mərhələyə qədəm qoymaqla, cəmiyyətimizin intellektual gənclərini ətrafında birləşdirir. Hazırkı mərhələdə isə, nəzərə alsaq ki, xalqların rəqabət və mübarizə fəaliyyətinin böyük bir hissəsi internet resursları, sosial media və klassik media üzərindən baş verir, o zaman biz bunun nə qədər əhəmiyyətli olduğunu bir daha anlamış olarıq. Bu mənada, Azərbaycan mediası tam azaddır və tarixin heç bir mərhələsində olmadığı qədər dövlət qayğısı və diqqəti ilə əhatə olunubdur. Azərbaycan mətbuatı və mediası söz azadlığından fikir ifadəsindən və plüralizmdən olduqca bəhrələnir. Bu gün, əlbəttə ki, Azərbaycan mətbuatı bu azadlıqlardan kifayət qədər istifadə edə bilir. Ona görə də, düşünürəm ki, intellektin, fikrin, yaradıcılığın və düşüncənin heç bir sərhədi yoxdur. Bizim azadlığımız elə, əslində, burdadır və dediyimiz kimi yaradıcılıq, düşünmək, idrak etmək yeni ideyalar gətirmək bu gün həm də medianın borcudur. Amma biz diqqətlə media cəmiyyət münasibətlərinə baxsaq, görərik ki, media ilə cəmiyyətin həm inkişafı, həm intellektual göstəriciləri bir-biri ilə düz mütənasibdir. Yəni ola bilməz ki, inkişaf etmiş cəmiyyətin inkişaf etməmiş mediası olsun və yaxud əksinə. Ancaq bu iki mühüm institutun ardıcıllığını müəyyənləşdirməyə çalışsaq, biz medianı önə çəkməliyik. Hər nə qədər media mənsubları özləri cəmiyyətin içərisindən çıxan fərdlərdirsə, bir o qədər də onlar cəmiyyətin öndə gedən fərdləri kimi səciyyələndirilir. Belə olan halda, yenə önə biz medianı çıxarmalıyıq, yəni cəmiyyətin yükünü də inkişafını da media öz üstünə götürməlidir. Çünki bu xüsusi bir intellektual təbəqədir.

## Ölkəmizdə söz azadlığı tamamilə təmin olunub

"Xalq cəbhəsi" qəzetinin baş redaktoru Elçin Mirzəbəylinin sözlərinə görə, Azərbaycan dövləti mətbuatın siyasi baxışlarına, yanaşmalarına fərq qoymadan hər il kütləvi informasiya vasitələrinə dövlət dəstəyini əsirgəmir. Mətbuatın maddi-texniki bazasının möhkəmləndirilməsi, sosial cəhətdən müdafiə olunması istiqamətində ciddi addımlar atılır və bu, ardıcıl olaraq, həyata keçirilir. Bu dövlətin mətbuata verdiyi dəstək və fikir azadlığına verilən qiymətdir. Eyni zamanda, nəzərə alsaq ki, ölkəmizdə söz azadlığı tamamilə təmin olunub, həmçinin, sosial şəbəkələrdə olan insanların sayı günü-gündən artır. Faktiki olaraq, bütün ölkə əhalisinin internetə çıxış imkanı var və bu faktlar Azərbaycanda söz-fikir azadlığına verilən qiymətin və dəyərin bir sübutudur.

***Ruqiyyə Nəcəfzadə***

***Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun keçirdiyi müsabiqəyə təqdim etmək üçündür***

# Radikallar daha da aqressivləşirlər

## Buna isə daha bir səbəb - Avropada oturum izni almaq məsələsidir

**Prezident seçkiləri yaxınlaşdıqca, radikal müxalifət düşərgəsi ətrafında dağıdıcı "real ana müxalifət" təşkilatlarını birləşdirdiyini iddia edən "Milli Şura" və bu qurumun idarəçilik yüyənini əlində saxlayan AXCP sədri Əli Kərimli daha da aqressivləşməyə başlayıb.**

Xüsusilə, Avropada yaşayan qondarma siyasi mühacirlər vasitəsilə "siyasi imic" formalaşdırmağa cəhd edən dağıdıcılar, hətta bunun üçün erməni lobbisinin dəstəyi ilə fəaliyyət göstərən təşkilatlarla da gizli münasibət saxlamaqdadırlar. Əbəs deyil ki, sosial şəbəkələrdə Ə.Kərimlinin söyüş qrupu tez-tez Orduxan Babirovun, Məhəmməd Mirzəlinin, Səid Nurinin və s. belə bir oyunbazlıqların arxasında pul məsələsi özünü açıq şəkildə göstərir. Daha çox gəlir əldə etmək üçün bu cür iyrənc yollardan istifadə edib, mənşəyi bilinməyən təşkilatlara xidmət edirlər.



### 2018-ci il 11 aprel seçkisi radikallar üçün siyasi səhnədə qalmağın son şansı kimi qiymətləndirilir

Yeri gəlmişkən, onu da xatırladaq ki, bir müddət öncə, xaricdə yaşayan azərbaycanlıların deportasiya ilə bağlı məsələləri gündəmə gəlmişdi. Almaniya hökumətinin saxta mühacirlərə qarşı ciddi araşdırmalara başladığı haqqında məlumatlar onların kürkünə birə salmışdı. Həmin ərəfədə də eyni qaydada radikal çıxışlarla özlərini siyasi mühacir kimi təqdim etməyə çalışanlar, indi də seçki fürsətindən yararlanmağa cəhd edirlər. Azərbaycanda yaşayan "söyüş maşınları" isə xaricdə daha rahat oturum almaq üçün bu yolu seçiblər. Bu yolu seçmək üçün onlara kimlərin məsləhət verdiklərini tapmaq isə, heç də çətin deyil. Azərbaycanda mühacir biznesinə kimlərin nəzarət etdikləri artıq hər kəsə məlumdur. Dəfələrlə bu məsələ haqqında mətbuatda təkzib olunmayan faktlar işıqlandırılıb. Bunların əlinə fürsət verən əsas məqam isə ənənəvi müxalifətin seçkidə iştirak etməkdən imtinası, real müxalifətin isə seçkiyə qatılmasıdır. Özünü ənənəvi müxalifət "təəssübkeşi" kimi göstərmək istəyənlər söyüş hədəflərini hakimiyyətə və seçkidə iştirak edən müxalifətə yönləndirir. Çünki yalnız hakimiyyəti təhqir etmək bu xainlərə effekt vermir.

Lakin necə olursa-olsun, əslində, 2018-ci il seçkisi radikallar üçün siyasi səhnədə qalmağın son şansı kimi qiymətləndirilirdi və belə də qalmaqda davam edir.

milli satqınların rəylərini paylaşır, özləri də həmin rəylərə münasibət bildirirlər. Bu münasibətlərin arxasından isə, bilavasitə erməni barmağının çıxacağına, ümumiyyətlə, şübhə yoxdur. Çünki ictimai rəy daha öncələr də bənzər halların şahidi olublar.

### Avropada oturum almaq üçün erməni lobbisi onlara bu yolla yardım edəcəklərini vəd verib

Digər tərəfdən, daha bir maraqlı olay AXCP-nin söyüş qrupunun hakimiyyətlə yanaşı, seçkilərə qatılacaqlarını bəyan etmiş müxalifət partiyalarını da hədəfə almalarıdır. Yəni əsas hədəf seçkidə iştirakla bağlı qərar verən real və sivil müxalifət partiyalarının namizədləridir. Saxta şəkildə "siyasi mühacir", "siyasi dissident" və s. pərdələnmələr altında hakimiyyətə və real müxalifətə söymək isə onlar üçün, necə deyərlər, "prioritet" istiqamətdir. Çünki Avropada oturum almaq üçün erməni lobbisi onlara bu yolla yardım edəcəkləri vədini veriblər. Onlar da, əlbəttə ki, bu kimi ucuz, xəyanət və satqınçılıq yolundan istifadə edirlər.

Digər tərəfdən isə, qeyd etdiyimiz kimi,

**RÖVŞƏN**

# "Haram xoşları olsun"

## Təhmasib Novruzov: "Sosial şəbəkələrdə müxaliflərin bir-birindən səviyyəsiz, şər-böhtanla dolu çıxışlarını görəndə, adamın əti ürpəşir"



Müsahibimiz "Azadlıq Hərəkatçıları Birliyi"nin sədri Təhmasib Novruzovdur

***- Təhmasib bəy, müxalifət Azərbaycan dövlətini və xalqını gözdən salmaq üçün xaricdəki məkrli qüvvələrdən istifadə edir. Bu cür ermənipərəst mövqe siyasətçini gözdən salan başlıca amillərdən olduğunu demək olarmı?***

- Sosial şəbəkələrdə müxaliflərin bir-birindən səviyyəsiz, şər-böhtanla dolu çıxışlarını görəndə adamın əti ürpəşir. Demək olar ki, kimin ağlına nə gəlirsə, oturur kameranın qarşısında boş-boş havaya sovrulan sözlər deyir. Heç bir şübhə yoxdur ki, bütün bunların hamısı Azərbaycanı sevməyən qüvvələr tərəfindən maliyyələşmiş insanlardır ki, bu şəxsləri xüsusi əllərlə hazırlamış və tapşırıqlar vermişlər. Bu gün Azərbaycanın dünyada analoqu olmayan sürətli inkişafını görməmək ən azı kor olmaq deməkdir. Qərəzli yol tutan həmin şəxslər isə bu reallığı görməzlikdən gələrək, səviyyəsiz çıxışlar etməklə, özlərini daha da gözdən salırlar. Xalq onların nə olduğunu və kim olduğunu özlərindən yaxşı bilir. Demək olar ki, onlar belə hərəkətlər etməklə qarşılığında boş qalan ciblərini doldurmağa ümid bəsləyirlər. Haram xoşları olsun.

***- Müxtəlif saxta vəsiqələr hesabına xaricə göndərilən müsavatçı və cəbhəçi bir növ ermənilərlə iş birliyi qurub, Azərbaycana qarşı antikampaniya aparırlar. Bu cür şəxslərə qarşı hüquqi addımlar hansı formada atıla bilər?***

- Azərbaycan Respublikasının hüquq-mühafizə orqanları xaricdə oturub Azərbaycan dövlətinə qarşı şər-böhtan kampaniyası aparan bu adamlarla bağlı cinayət işi açmalı və onların Azərbaycana ekstradisiya edilməsinə nail olmalıdır. Düşünürəm ki, o pozucu yol tutan insanlar Azərbaycana gətirilməli, nəyi pisləyirlərsə, o pislədiklərini xalqa sübut etmələrini soruşmaq lazımdır. Həmin şəxslər ölkəmizlə bağlı bu cür iyrənc çıxışlar etməklə, yalnız və yalnız oradakıları aldada bilərlər. Çünki burada hər şeyi xalq yaxşı bilir və görür. Yəni sən bu xalqı aldada bilməzsən. Azərbaycandakı iqtisadi inkişaf əksər ölkələr üçün nümunə ola bilər.

***- Cəmil Həsənli, eləcə də, Arif Hacılı hər dəfə müxtəlif ermənipərəst təşkilatlarla görüşlər keçirirlər. Müəyyən sövdələşmələrin yerinə yetirilməsi qarşılığında, pul aldıqlarını demək olarmı?***

- Heç şübhə yoxdur ki, müxalifət partiya sədrləri təxribat xarakterli fəaliyyətləri qarşılığında xaricdən maliyyə yardımları alırlar. Demək olar ki, bu müxalifətçilərin bütün danışıqlarında Azərbaycanın mənafeləri ilə ziddiyyət təşkil edən məkr dayanır. Çünki milli mənafeyi olmayan, milli qüruru olmayan insanlardan bundan başqa heç nə gözləmək olmaz. Bu şəxslərə, ciblərini doldurmaq lazımdır. Birmənalı şəkildə demək olar ki, müxalifət düşərgəsini təmsil edən şəxslər bu gün ölkəmizdə gedən inkişafı gözləri götürmür və bu inkişafa kölgə salmaq üçün də əllərindən gələni edirlər. Hər zaman olduğu kimi, bu dəfə də müxalifətin ölkəmizlə bağlı məkrli planları həyata keçməyəcəkdir. Çünki müxalifətin xalq tərəfindən heç bir siyasi dəstəyi yoxdur. Demək olar ki, onlar xalqın gözündən tamamilə düşüblər.

**GÜLYANƏ**

## "Kalaşnikov" gəzdirən şəxs saxlanılıb

Polis əməkdaşları tərəfindən əllərdə qanunsuz olaraq saxlanılan odlu silah-sursatın aşkar edilməsi məqsədilə növbəti uğurlu əməliyyat tədbiri həyata keçirilib. Daxili İşlər Nazirliyindən SİA-ya verilən məlumata görə, Nəqliyyatda Baş Polis İdarəsinə Bakı Dəmiryolu Vağzalının ərazisində Arif adlı şəxsdə odlu silah-sursat olması barədə məlumat daxil olub. Baş İdarə əməkdaşlarının həyata keçirdikləri təxirəsalınmaz əməliyyat-axtarış tədbirləri nəticəsində həmin şəxs - Sumqayıt şəhər sakini, əvvəllər dəfələrlə məhkum olunmuş Arif Kiçiknicat saxlanılıb. Baş İdarədə hal şahidlərinin iştirakı ilə onun üzərində şəxsi axtarış keçirilən zaman "AKM" markalı avtomat və içərisində 9 ədəd patron olan daraq aşkar olunaraq götürülüb. Faktla bağlı Cinayət Məcəlləsinin müvafiq maddəsi ilə cinayət işi başlanılıb, araşdırmalar davam etdirilir.

## Magistraturaya qəbul imtahanının birinci mərhələsi başa çatıb

Dövlət İmtahan Mərkəzi (DİM) tərəfindən ali təhsil müəssisələrinin və Azərbaycan Milli Elmlər Akademiyasının magistraturalarına qəbul imtahanının birinci mərhələsi keçirilib. DİM-dən AZƏRTAC-a bildirilib ki, magistratura səviyyəsinə qəbul imtahanının birinci mərhələsi respublikanın 5 şəhərində - Bakı, Naxçıvan, Gəncə, Mingəçevir və Lənkəran şəhərlərində, ümumilikdə 38 imtahan binasında aparılıb. İmtahan bütün binalarda eyni vaxtda başlanıb və 2 saat 30 dəqiqə davam edib. İmtahan prosesinin idarə edilməsi üçün DİM-də operativ qərargah fəaliyyət göstərib, imtahanın keçirildiyi binalarla əlaqə saxlanılıb və imtahan prosesinin gedişi nəzarətdə olub. Bütün binalarda imtahan təlimata uyğun şəkildə keçirilib, bakalavrların öz bilik səviyyələrini nümayiş etdirmələri üçün zəruri şərait yaradılıb.

# "Mehriban düşmənlər" barışacaqmı?

***Mövcud fakt ondan ibarətdir ki, dövlətimizin əldə etdiyi uğurları gözü götürməyən xarici qüvvələr var. Bu baxımdan, müxalifətin uğursuzluğu və zəifliyi həmin qüvvələrin hədsiz narahatlığına səbəb olub. Çünki müxalifətin zəif olması həmin xarici qüvvələrə bir o qədər də sərf etmir. Məkrli xarici ünsürlərin Azərbaycanda öz çirkin siyasətlərini həyata keçirə bilməmələrinə səbəb, birbaşa müxalifətin verilən tapşırıqları yerinə yetirə bilməməsidir. Bunun da səbəbi dağıdıcı müxalif ünsürlərin xalq tərəfindən heç bir dəstəyinin olmamasıdır. Xarici qüvvələr də bunu bildiyi və dərk etdiyi halda, müxalifətin canlanması üçün nə isə bir fikir ortaya atmağa çalışırlar.***

Real fakt ondan ibarətdir ki, müxalifətin yaratdığı blok və qurumların ömürlərinin qısa olmasının səbəbi xalqa və dövlətə zidd siyasət daşıyıcısı olan müxalif ünsürlərin həm də bir-birinə qarşı rəqib mövqedə dayanmalarıdır. Əksər hallarda bir-birinə qarşı üzdə bir, arxada başqa cür münasibətlər sərgiləyirlər. Dağıdıcı partiyaların rəhbərləri, hədsiz zəif olduqları halda, böyük iddialarla çıxış edirlər, reallığı özündə əks etdirməyən xəyallar qururlar. Özünə vurğunluq və xarici maraqlı qüvvələrin alətləri rolunda çıxış etmələri, nəticə etibarı ilə, müxalifətin məğlubiyyətini qaçılmaz edən başlıca amillərdəndir. Ona görə də, müxalifətin dağılması labüddür.

### Əlacları olsa...

Dağıdıcı müxalifət düşərgəsində fəaliyyət göstərən partiya rəhbərləri bir-birinə qarşı amansız mübarizə aparırlar. Biri digərini gözdən salmaqdan ötrü hər cür vasitə və üsula əl atır. Elə indi də bu anormal siyasəti davam etdirirlər. Buna misal kimi, tarixi düşmənlər olan AXCP sədri Əli Kərimli ilə Müsavatın keçmiş başqanı İsa Qəmbərin bu gün də bir-birinə qarşı amansız mövqe sərgiləmələrini göstərmək olar. "MSDM"-nin və Müsavatın "Milli Şura" və AXCP-yə qarşı fəaliyyət göstərməsi Ə.Kərimli-İ.Qəmbər düşmənçiliyindən qaynaqlanır. Bü cür idarəolunmaz durum və qarşılıqlı ittihamlar partiyaların dağılmalarına gətirib çıxarır. Ümumiyyətlə, Müsavat və AXCP-nin özlərinə uyğun, bir-birindən fərqli hədəfləri və ambisiyaları var. Bəzən bu hədəflər və ambisiyalar toqquşur və gələcəkdə də toqquşacaq. Maraqlar toqquşan zaman çox emosional davranmaqdansa, daha çox məntiqlə davranmaq lazımdır. "Siyasətçilər" şəxsi münasibətlərini siyasətə və partiyalararası fəaliyyətlərinə qatmasaydılar, bəlkə də, Müsavatla AXCP-nin əməkdaşlığı mümkün olardı. Ancaq görünən odur ki, bu, qeyri-mümkündür. Beləliklə, o qənaətə gəlmək mümkündür ki, Müsavat və AXCP arasındakı qarşıdurma, olduğu kimi davam edəcək. Proqnozlaşdırmaq olar ki, prezident seçkilərindən sonra qarşı duran tərəflər seçkiyə qatılmamağa görə bir-birini qınayacaqlar. Bu qınaq dərinləşəcək və yeni həlli mümkün olmayan problemlər yaradacaq. Nəticədə, hər iki partiyada növbəti qopmalar və parçalanmalar baş verəcək. Hər halda, hazırkı məqamda baş verənlər bunu deməyə əsas verir. Daha real və məntiqi cavablar isə, seçkilərdən sonra bəlli olacaq.

**Afət TAHİRQIZI**

# Azərbaycanın hüquq sistemində əmək hüququnun yeri

***Azərbaycan Respublikası Konstitusiyasının 35-ci maddəsində göstərilmişdir: “Əmək fərdi və ictimai rifahın əsasıdır. Hər kəsin əməyə olan qabiliyyəti əsasında sərbəst surətdə özünə fəaliyyət növü, peşə, məşğuliyyət və iş yeri seçmək hüququ vardır.***

Heç kəs zorla işlədilə bilməz. Əmək müqavilələri sərbəst bağlanılır. Heç kəs əmək müqaviləsi bağlamağa məcbur edilə bilməz. Məhkəmə qərarı əsasında şərtləri və müddətləri qanunla nəzərdə tutulan məcburi əməyə cəlb etmək, hərbi xidmət zamanı səlahiyyətli şəxslərin əmrlərinin yerinə yetirilməsi ilə əlaqədar işlətmək, fövqəladə vəziyyət zamanı və hərbi vəziyyət vətəndaşlara tələb olunan işləri gördürmək hallarına yol verilir. Hər kəsin təhlükəsiz və sağlam şəraitdə işləmək, heç bir ayrı-seçkilik qoyulmadan öz işinə görə dövlətin müəyyənləşdirdiyi minimum əmək haqqı miqdarından az olmayan haqq almaq hüququ vardır. İşsizlərin dövlətdən sosial müavinət almaq hüququ vardır. Dövlət işsizliyin aradan qaldırılması üçün bütün imkanlarından istifadə edir.”

Özünün konstitusiya hüququ olan əmək hüququnu həyata keçirən hər bir vətəndaş əmək müqaviləsini bağladığı andan əmək hüquq münasibətlərinə daxil olur. Əmək hüququnun predmetini təşkil edən münasibətlər arasında işçilərlə işəgötürən arasındakı muzdlu əmək münasibətləri əsas yer tutur. Əmək qanunvericiliyinə uyğun olaraq, bu münasibətlər, işçilərin əməyinin təşkilinə dair müəssisələrdə əmələ gələn iradəvi sosial münasibətləri özündə əks etdirir. Hal-hazırda əmək münasibətlərinin iki əsas qrupu göstərilir: əmək müqaviləsi üzrə işləyənlərin muzdlu əmək münasibətləri və əmək proseslərində iştirak etmək üçün müəssisənin əmlakının mülkiyyətçilərinin iştirak etdikləri münasibətlər. Əmək müqaviləsi əsasında muzdlu əmək münasibətləri, vətəndaşın (işçinin) müəssisənin daxili əmək qaydalarına, əmək rejiminə və əməyin təşkilinin digər xüsusiyyətlərinə tabe olmaqla müəyyən ixtisas, peşə və vəzifə üzrə əmək funksiyasını yerinə yetirmək məqsədilə müəssisənin əmək kollektivinə daxil olması ilə əmələ gəlir. Əmək münasibətlərinin tənzimlənməsi ilə əmək-hüquq münasibətləri yaranır. Əmək-hüquq münasibətlərinin məzmununu subyektlərin (tərəflərin) bu hüquq münasibətlərinin yarandığı andan əldə etdikləri konkret hüquq və vəzifələr təşkil edir. Bir tərəfin (işçinin) hüququ digər tərəfin (müdiriyyətin) konkret vəzifələrinə uyğundur və ya əksinə. Məsələn, işçinin əmək haqqı almaq hüququ müdiriyyətin işçiyə əmək haqqını ödəmək vəzifəsilə həyata keçir. Lakin əmək hüququnun predmeti yalnız muzdlu əmək münasibətlərindən ibarət deyildir. Bura əməklə sıx bağlı olan və törəmə adlanan aşağıdakı ictimai münasibətlər də daxildir: 1) məşğulluq və işədüzəltmə üzrə münasibətlər; 2) təşkilati-idarəçilik münasibətləri; 3) istehsalatda kadrların peşə hazırlığı və ixtisasının artırılması üzrə münasibətlər; 4) əmək müqaviləsi tərəflərinin bir-birinə vurduqları maddi ziyanın ödənilməsi ilə bağlı münasibətlər; 5) əməyin mühafizəsi və işçilərin sağlamlığı üzrə münasibətlər; 6) əmək mübahisələrinə baxılması üzrə münasibətlər və s.

Beləliklə, əmək qanunvericiliyi ilə tənzimlənən sosial-ictimai münasibətlərin dairəsini müəyyən etməklə əmək hüququnun aşağıdakı anlayışını vermək olar: əmək hüququ milli hüququn müstəqil bir sahəsi olub, işçilərlə işəgötürən arasında yaranan əmək münasibətlərini, habelə, onlarla sıx bağlı olan digər törəmə münasibətləri nizama salan hüquq normalarının məcmusudur. Əmək hüququ Azərbaycanın hüquq sistemində xüsusi yer tutur. O, işçilərin işə qəbul olunma, başqa işəkeçirmə və işdənçıxarılma qaydalarını, əməyin ödənilməsi sistemi və normalarını, əməkdəki nailiyyətlərinə görə həvəsləndirməni, əmək və icra intizamının pozulmasına görə intizam-tənbeh tədbirlərinin tətbiqini, fərdi və kollektiv əmək mübahisələrinə baxılması qaydalarını müəyyən edir. Əmək-hüquq normalarının təsbit edildiyi normativ-hüquqi aktlar əmək hüququnun mənbələri adlanır. Əmək hüququnun mənbələri, hər şeydən əvvəl, əmək qanunvericiliyinin müəyyən normativ aktlarda ifadəsinin formasıdır. Bu cür normativ aktlarda isə, həm əmək-hüquq normaları, həm də kompleks hüquq normaları mövcud ola bilər. Əmək hüququnun mənbələri içərisində əsas yeri Azərbaycan Respublikası Konstitusiyasında əməyin hüquqi tənzimləməsinin başlıca əsas prinsipləri müəyyən edilib. Konstitusiyanın 35-ci (əmək hüququ), 36-cı (tətil hüququ), 37-ci (istirahət hüququ), 38-ci (sosial təminat hüququ), 41-ci (sağlamlığın qorunması hüququ), 59-cu (azad sahibkarlıq hüququ) və s. maddələrində təsbit edilən bu prinsiplər milli əmək qanunvericiliyimizin əsas mahiyyəti və məzmununu təşkil edir. Əmək hüququnun mənbələri sistemində konstitusiyadan sonra başlıca yeri Azərbaycan Respublikasının Əmək Məcəlləsi tutur. Azərbaycan Respublikasının Əmək Məcəlləsi respublika ərazisində əmək münasibətlərini nizamlayan hüquq normalarını birləşdirən və sistemləşdirən qanunvericilik aktıdır. İşçilərlə işəgötürənlər arasında yaranan əmək münasibətlərini, habelə, onlarla müvafiq dövlət hakimiyyəti orqanları, hüquqi şəxslər arasında həmin münasibətlərdən törəyən digər hüquq münasibətlərini tənzim edən bu məcəllə fiziki şəxslərin əmək hüquqlarının və bu hüquqların həyata keçirilməsini təmin edən qaydaların minimum normalarını müəyyən edir. Məcəllənin 2-ci maddəsinin 3-cü hissəsinə əsasən, Azərbaycan Respublikasının Əmək Məcəlləsi əmək münasibətlərində tərəflərin: - hüquq bərabərliyinin təmin edilməsi; - mənafelərinin haqqədalətlə və qanunun aliliyinin təmin olunması ilə qorunması; - maddi, mənəvi, sosial, iqtisadi və digər həyati tələbatlarını ödəmək məqsədilə əqli, fiziki və maliyyə imkanlarından sərbəst istifadə etməsinin təmin edilməsi; - əsasən, əmək müqaviləsi (kontrakt) üzrə öhdəliklərinin icrasına hüquqi təminat yaradılması prinsiplərinə əsaslanır. Əmək hüququnun mənbələri içərisində qanunlar, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamları, Nazirlər Kabinetinin qərar və sərəncamları, Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin, həmçinin, digər nazirliklərin, baş idarələrin, komitələrin normativ aktları da xüsusi yer tuturlar. Əmək münasibətlərinin nizama salınmasında lokal normativ aktların - kollektiv müqavilələrinin, müəssisədaxili intizam qaydalarının və s.-nin də mühüm əhəmiyyəti vardır.

Hal-hazırda bazar iqtisadiyyatına keçid şəraitində müəssisələrin təsərrüfat müstəqilliyinin genişlənməsi, iqtisadiyyatın idarə edilməsinin inzibati-amirlik metodlarından imtina olunması ilə əlaqədar olaraq, lokal normativ aktların rolu və çəkisi əhəmiyyətli dərəcədə artmaqdadır. 2. Kollektiv Müqavilə və saziş hal-hazırda əmək münasibətlərinin tənziminin müqavilə üsullarının əsas hüquqi formaları kimi çıxış edir. Əmək Məcəlləsinin 3-cü maddəsinə görə kollektiv müqavilə işəgötürənlə əmək kollektivi və ya həmkarlar ittifaqı təşkilatı arasında yazılı formada bağlanan əmək, sosial-iqtisadi, məişət və digər münasibətləri tənzimləyən müqavilədir. Bazar iqtisadiyyatına keçid dövründə kollektiv müqavilə, əməyin şərtlərini, habelə, müəssisənin işçiləri üçün əmək şəraitinin təmin edilməsi ilə sıx bağlı olan digər məsələləri müəyyən edən hüquqi akt kimi çıxış edir. Kollektiv müqavilənin bağlanmasında kollektiv danışıqlar aparmaq hüququ başlıca yer tutur. Kollektiv müqavilənin istənilən tərəfi kollektiv danışıqların təşəbbüsçüsü ola bilər. Təşəbbüskar tərəf danışıqların başlanması haqqında digər tərəfi yazılı surətdə xəbərdar edir. Xəbərdar olunan tərəf, on gündən gec olmayaraq, danışıqlara başlamağa borcludur. Əgər müəssisədə həmkarlar ittifaqları təşkilatı yoxdursa, əmək kollektivi danışıqlar aparmaq üçün xüsusi səlahiyyətli komissiya yaradır. Əmək Məcəlləsinin 26-cı maddəsinə əsasən, Kollektiv Müqavilənin və sazişin və ya onlarda dəyişikliklərin layihəsinin hazırlanması məqsədilə danışıqlar aparmaq üçün tərəflər müvafiq səlahiyyətlər verilmiş bərabərsaylı nümayəndələrdən ibarət komissiya yaradırlar.

Komissiyanın tərkibi, danışıqların gündəliyi, keçirilmə yeri və müddəti tərəflərin birgə qərarı ilə müəyyən edilir. Tərəflər Kollektiv Müqavilənin və sazişin məzmununa aid məsələlərin seçilməsi və müzakirə edilməsində sərbəstdirlər. Komissiyanın tələbi ilə tərəflər, kollektiv danışıqların aparılması üçün zəruri olan məlumatları beş gün müddətində təqdim etməlidirlər. Danışıqlar zamanı tərəflər razılığa gələ bilmədikdə, fikir ayrılığı haqqında protokol tərtib edilir. Protokolda fikir ayrılığının aradan qaldırılması haqqında tərəflərin yekun təklifləri, habelə danışıqların yenidən başlanması müddəti göstərilir. Kollektiv Müqavilənin tərəfləri - işəgötürən və həmkarlar ittifaqları təşkilatıdır. Həmkarlar təşkilatı olmayan müəssisələrdə tərəf kimi əmək kollektivi çıxış edir. Kollektiv Müqavilənin layihəsi tərəflərin bərabər saylı nümayəndələrindən ibarət olan müvafiq komissiya tərəfindən baxıldıqdan sonra təsdiq olunmaq üçün həmkarlar ittifaqları təşkilatının (əmək kollektivinin) ümumi yığıncağının (konfransının) müzakirəsinə verilir. Ümumi yığıncaqda işçilərin 50 %-dən çoxu iştirak etdikdə səlahiyyətlidir. Kollektiv Müqavilənin layihəsi yığıncaqda müzakirə edilib bəyənildikdən sonra kollektiv müqavilə bağlanır. Kollektiv Müqavilənin quruluş və məzmununu tərəflər müəyyən edirlər. Kollektiv Müqaviləyə, bir qayda olaraq, aşağıdakı məsələlər üzrə tərəflərin qarşılıqlı öhdəlikləri daxil edilir: - əməyin ödənilməsi qaydaları və miqdarının, pul mükafatlarının, müavinətlərin, əlavələrin və digər ödəmələrin müəyyən edilməsi; - məşğulluq, kadr hazırlığı və ixtisasartırma, işçilərin sərbəstləşdirilməsi şərtləri; - qiymətlərin artımı, inflyasiyanın səviyyəsi nəzərə alınmaqla, əmək haqqı miqdarının tənzimlənmə mexanizmi; - iş və istirahət vaxtı, məzuniyyətlərin müddəti haqqında şərtlər; - işçilərə və onların ailə üzvlərinə mədəni və məişət xidmətlərinin, sosial təminatlar və güzəştlərin müəyyən edilməsi; - qadınların, 18 yaşına çatmamış işçilərin əmək şəraitinin yaxşılaşdırılması; - əməyin mühafizəsinin yaxşılaşdırılması üçün əlavə təminatların müəyyən edilməsi; - əmək vəzifələrini yerinə yetirməklə əlaqədar işçilərə dəyən ziyanın ödənilməsi; - işçilərin ekoloji təhlükəsizliyinin və sağlamlığının gözlənilməsi; - Kollektiv Müqavilənin şərtlərinin pozulmasına görə tərəflərin məsuliyyəti və s.

Kollektiv Müqavilədə müəssisənin iqtisadi imkanları nəzərə alınmaqla digər, daha güzəştli əmək və sosial-iqtisadi şərtlər də nəzərdə tutula bilər. Məsələn, əlavə məzuniyyətlər, pensiyalara əlavələr, nəqliyyat və ezamiyyət xərclərinin ödənilməsi və digər güzəşt və əvəzlər. Kollektiv Müqavilə bir ildən üç ilədək müddətə bağlanır. Kollektiv Müqavilə imzalandığı və ya müqavilədə göstərilən gündən qüvvəyə minir. Kollektiv Müqavilənin yerinə yetirilməsinə nəzarəti tərəflər və müvafiq icra hakimiyyəti orqanı həyata keçirir. Həmkarlar ittifaqları təşkilatı Kollektiv Müqaviləni pozmağa görə maddi məsuliyyət daşımır. Kollektiv Müqaviləni pozmağa görə müəssisənin (idarənin) vəzifəli şəxsləri intizam məsuliyyətinə cəlb edilir. Qanunda nəzərdə tutulmuş hallarda təqsirli vəzifəli şəxslər inzibati qaydada cərimə oluna bilər, müvafiq hallarda isə cinayət məsuliyyətinə cəlb edilə bilərlər.

Azərbaycan Hökuməti ilə Beynəlxalq Əmək Təşkilatı (BƏT) arasında əməkdaşlıq çərçivəsində “2016-2020-ci illər üçün Layiqli Əmək üzrə Ölkə Poqramı” hazırlanıb. Yeni Proqramda əksini tapan prioritetlərin, onların layiqli əmək üzrə beynəlxalq normalara uyğunluğunun, habelə Proqramın icrası yönündə görüləcək işlərin müzakirə edilməsi məqsədilə Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası (AHİK), Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının (ASK) və BƏT-in nümayəndələrinin iştirakı ilə konfrans keçirilib.

**Vahid ÖMƏROV,**
*fəlsəfə üzrə fəlsəfə doktoru*

Azərbaycan Respublikasının Prezidenti yanında
Kütləvi İnformasiya Vasitələrinin İnkişafına
Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə “İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması” istiqaməti çərçivəsində hazırlanıb*

səs

Son səhifə 27 fevral

## Dişləri təmizləməzdən qabaq fırçanı islatmaq vacibdirmi?



Pastanı islaq və ya quru fırçanın üzərinə çəkməyin dişilərin yuyulmasına heç bir ciddi təsiri yoxdur. AZƏRTAC xəbər verir ki, Britaniya Stomatoloji Assosiasiyasının məsləhətçisi professor Demyen Uolmsli bu barədə "IBTimes UK"a nəşrinə verdiyi müsahibədə söyləyib.

Sadəcə, fırça qurudursa, onun tükləri dişləri və diş ətini daha sərt sürtəcək və bu da ağız boşluğunun qıcıqlanması və yüngül zədələnməsi təhlükəsi yarada bilər. Fırça islaq olanda həmin proses daha rahat və xoş olur. "Hansı üsula üstünlük verilməsindən asılı olmayaraq, dişləri gündə iki dəfə - xüsusən ikincisi yatmazdan əvvəl - ftorlu diş pastası ilə yuyulması vacibdir. Proses ən azı iki dəqiqə çəkməlidir", - deyə D.Uolmsli qeyd edib.

Stomatoloq Liza Kreyven də razılaşır ki, pastanı islaq və ya quru fırçanın üzərinə çəkmək barədə heç bir dəqiq qayda yoxdur. Bununla belə, o, rahatlıq üçün dişləri yumazdan əvvəl fırçanı isti su ilə nəmləndirməyi məsləhət görür. "Diş pastasının tərkibindəki su onun köpüklənməsinə kömək etsə də, dişlərin islaq fırça ilə yuyulması daha xoşdur. Belə edilməsi rahatlıq bəxş edir və dişlərini daha yaxşı yumaq olur," - deyə stomatoloq izah edib. Dişləri yuduqdan dərhal sonra ağzı su ilə yaxalamağa da ehtiyac yoxdur, çünki bu zaman pastanın tərkibindəki diş və diş əti üçün faydalı olan maddələr də yuyulub gedir. Mütəxəssislərin fikrincə, ən yaxşısı pasta qalıqları təmizləndikdən bir az sonra ağzı yüngülcə yaxalamaqdır.

## Polşada bu qış 48 nəfər soyuqdan donaraq ölüb




Noyabrın 1-dən bəri Polşada 48 nəfər donaraq həyatını itirib. AZƏRTAC xarici KİV-lərə istinadla xəbər verir ki, təhlükəsizlik üzrə hökumət mərkəzi ötən sutka ərzində Polşada 2 nəfərin donvurmadan öldüyünü bildirib. Əvvəlki günlərdə isə 5 nəfər donaraq ölmüşdü. Qeyd edək ki, ölkədə artıq bir neçə gündür güclü şaxtalarla əlaqədar birinci dərəcəli xəbərdarlıq rejimi qüvvəyə minib. Hökumət orqanları bununla bağlı insanları ehtiyatlı davranmağa, əsasən də yaşlılara və evsizlərə qarşı diqqətli olmağa çağırıb.

## ŞOK: İraqda 16 türkiyəli qadın edam ediləcək

İraq Mərkəzi Cəza Məhkəməsi Türkiyə vətəndaşı olan 16 qadını edam cəzasına məhkum edib. Axar.az xəbər verir ki, bu barədə İraqın Ali Məhkəməsi məlumat yayıb. Qərara səbəb kimi sözügedən qadınların İŞİD sıralarına qoşulması göstərilib. "Şübhəli şəxslərin sorğu-sualı zamanı məlum olub ki, onlar İŞİD üzvləri ilə evlənmək məqsədilə İraqa gəliblər. Terrorçulara logistik dəstək verdiklərini də etiraf ediblər", - deyə bildirilib.

Qeyd edək ki, məhkum qadınların məhkəmə qərarından şikayət etmək hüququna malik olduqları da vurğulanıb.

## Cüdoçularımız Düsseldorfdakı "Böyük dəbilqə" turnirini iki medalla başa vurublar



Almaniyanın Düsseldorf şəhərində cüdo üzrə "Böyük dəbilqə" turniri başa çatıb. Turnirin sonuncu günündə qadınların yarışında 78 kiloqramdan yuxarı çəki dərəcəsində ölkəmizi təmsil edən İrina Kindzerska yalnız bir görüşdə uduzaraq bürünc medal qazanıb. Cüdoçumuz üçüncü yer uğrunda qarşılaşmada Bosniya və Herseqovina təmsilçisi Larisa Ceriçə qalib gəlib.

Xatırladaq ki, İ.Kindzerska 2 həftə əvvəl Parisdə keçirilən nüfuzlu yarışı da bürünc medalla başa vurub. Beləliklə, Azərbaycan cüdoçuları Almaniya turnirində 2 medala sahib olublar. Kişi cüdoçularımız arasında ən yaxşı nəticəni gümüş medal qazanan Rüstəm Orucov göstərib. Düsseldorf turnirində 65 ölkədən 441 cüdoçu mübarizə aparıb.




## Useyn Bolt "Borussiya"da oynayacaq

Əfsanəvi atlet Useyn Bolt peşəkar futbolçu olmağa hazırlaşır. SİA-nın məlumatına görə, yamaykalı idmançı "Twitter" hesabında "Bfutbol klubu ilə müqavilə imzaladım",- deyə yazıb. Bolt yeni klubunun adını sabah açıqlayacağını bildirsə də, Almaniya mətbuatı 32 yaşlı sabiq atletin Dortmund "Borussiya"sı ilə anlaşdığını iddia edir. Bir müddətdir komanda ilə məşqlərə qatılan Boltun mart ayından etibarən "Borussiya"nın heyətində meydana çıxması gözlənilir. Qeyd edək ki, Useyn Bolt 100 və 200 metr məsafəyə qaçışda dünya rekordçusudur.

## Robert Levandovski israilli menecerlə anlaşıb



Polşa millisinin və "Bavariya"nın hücumçusu Robert Levandovski meneceri Çezari Kuxarski ilə yollarını ayırıb. AZƏRTAC xəbər verir ki, həmvətəni ilə 10 illik əməkdaşlığa son qoyan polşalı forvard özünə yeni agent tapıb. İyirmi doqquz yaşlı futbolçu bundan sonra Pini Zahavi ilə işləyəcək.

Levandovskinin bir çox məşhur futbolçunun transferini həll edən israilli menecerlə əməkdaşlığa başlaması onun yayda "Real"a keçəcəyi iddialarını gücləndirib. Təcrübəli futbolçunun "kral klubu"nda Kərim Benzemanı əvəzləyəcəyi gözlənilir. Qeyd edək ki, ingilis klubları, xüsusilə "Mançester Yunayted" və "Çelsi" ilə yaxşı münasibətləri olan Zahavi Neymarın "Barselona"dan PSJ-yə keçidində də yaxından iştirak edib. Hətta o, bu transferdən 12 milyon avro faiz götürüb.

## "Beşiktaş" "Fənərbağça"nı məğlub edib



Türkiyə Super Liqasının 23-cü turu çərçivəsində "Beşiktaş" və "Fənərbağça" qarşılaşıblar. Turun mərkəzi qarşılaşmasında 4 qol vurulub, oyun 3:1 hesabı ilə "Beşiktaş"ın xeyrinə yekunlaşıb. Matçda hesabı "Fənərbağça" açsa da, "Beşiktaş" ikinci hissədə 3 qol vurub və qələbə qazanıb. Bu qələbə sayəsində "Beşiktaş" "Fənərbağça" ilə xalını bərabərləşdirib və top fərqinə görə 3-cü pilləyə yüksəlib. Hazırda hər iki klub lider "Qalatasaray"dan 3 xal geri qalır.

## ELAN

Azərbaycan Dövlət Pedaqoji Universitetinin Riyaziyyat və informatika müəllimliyi ixtisası üzrə III kurs tələbəsi Mürsəlova Şəbnəm Maqsud qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

***

Azərbaycan Dövlət Pedaqoji Universitetinin filologiya fakültəsinin III kurs tələbəsi Vəliyeva Sərəncam İsmayıl qızına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

*Baş redaktor:*
**Bəhruz Quliyev**
*Baş redaktorun müavinləri:*
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 32.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
*Qəzetdə AzərTAc, SİA, APA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.*

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 5500**